NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR
HEYDƏR ƏLİYEV



# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
31 mart 2026-cı il, çərşənbə axşamı, № 3 (72)

# NDU nəzdində Gimnaziyanın komandası "Sabahın alimləri" müsabiqəsində I yerin qalibi olub

NDU nəzdində İngilis dili təmayüllü Gimnaziyanın komandası "Sabahın alimləri" XV Respublika Layihə Müsabiqəsinin final mərhələsində böyük uğura imza ataraq I yerə layiq görülüb və qızıl medal qazanıb.

Gimnaziyanın XI sinif şagirdləri Hüseyn Tahirov və Kənan Məmmədzadənin təqdim etdikləri "ReseptPlus" adlı innovativ layihə müsabiqədə münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib. Layihənin elmi rəhbəri Tələbələrlə iş və tədbirlərin təşkili şöbəsinin müdiri, "Meliorasiya və ekologiya mühəndisliyi" kafedrasının müəllimi Hüseyn İmanovdur.

Bu il müsabiqəyə 760 layihə təqdim olunub. Seçim mərhələsindən uğurla keçən 152 layihə (127 kollektiv, 25 fərdi) final mərhələsində iştirak edib. IX-XI sinif şagirdləri riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya, mühəndislik, kompüter elmləri, robototexnika və süni intellekt olmaqla 9 istiqamət üzrə layihələrini təqdim ediblər.

Komanda may ayında ABŞ-da keçiriləcək Regeneron ISEF beynəlxalq elm və mühəndislik sərgisində Azərbaycanı təmsil etmək hüququ qazanıb.









Qeyd edək ki, layihənin müəllifi Hüseyn Tahirov təhsil və olimpiada sahəsində qazandığı uğurlarla seçilir. O, 9-cu sinif üzrə ümumi orta təhsil haqqında attestat imtahanında 291 bal toplayaraq qırmızı attestata layiq görülüb.

Hüseyn Tahirov Dünya Robot Olimpiadasının Azərbaycan finalında "Robosports" kateqoriyası üzrə 1-ci yer qazanaraq Panama Respublikasında ölkəmizi təmsil edib. 10-cu sinifdə isə respublikada eyni kateqoriya üzrə yenidən 1-ci yer tutaraq Türkiyədə keçirilən final mərhələsində ölkəmiz adından yarışıb. Azərbaycan bu olimpiadada 110 ölkə arasında 11-ci yeri tutub.

O, həmçinin müxtəlif olimpiada və müsabiqələrdə uğurlar qazanıb: Respublika Fənn Müsabiqəsində riyaziyyat üzrə 4-cü yer, gimnaziyaya qəbul imtahanında muxtar respublika üzrə 2-ci yer, STEAM sahəsində keçirilən layihələrdə 6 dəfə qalibiyyət və "STEAM Azerbaijan 2022" festivalında nominasiya üzrə 2-ci yer əldə edib.

Bundan əlavə, informatika üzrə Respublika Fənn Olimpiadasında Naxçıvan üzrə ilk dəfə final mərhələsinə yüksələn şagird olub.

NDU Gimnaziya komandasını bu böyük uğur münasibətilə təbrik edir, gələcək fəaliyyətlərində yeni nailiyyətlər arzulayırıq.

# 26 Fevral – Xocalı soyqırımı yad edilib

Naxçıvan Dövlət Universitetində 26 Fevral – Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı anım tədbiri keçirilib.

Tədbirdən öncə Gülxarə Əhmədovanın rəhbərliyi ilə Tələbə Teatr Studiyası tərəfindən Xocalı soyqırımına həsr olunmuş tamaşa-kompozisiya təqdim edilib. Həmçinin İncəsənət fakültəsinin müəllim və tələbələrinin Xocalı faciəsi və 44 günlük Vətən müharibəsindəki Zəfəri əks etdirən əl işlərindən ibarət rəsm sərgisinə baxış olub.





Ümummilli Lider Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin və Xocalıda həlak olan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən NDU-nun rektoru Elbrus İsayev Xocalı faciəsinin insanlığa qarşı törədilən ən ağır cinayətlərdən biri olduğunu qeyd edib. Bildirib ki, Xocalı faciəsi özünün əsl hüquqi-siyasi qiymətini yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra alıb. Ulu Öndərin müəyyənləşdirdiyi strateji xətti davam etdirən Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımız artıq azad olunub, Xocalı şəhidlərinin qanı yerdə qalmayıb. Bu gün Xocalıda həyata keçirilən infrastruktur layihələri, köçkünlərin öz dədə-baba torpaqlarına qayıtması, Xocalının daha böyük imkanlarla yenidən qurulması tarixi ədalətin bərpası kimi qiymətləndirilib. Rektor qan yaddaşımızın gələcək nəsillərə çatdırılmasının vacibliyindən söz açaraq vurğulayıb ki, gənclər tarixi həqiqətləri dərindən öyrənməli, keçmişin dərslərindən nəticə çıxarmalı və tariximizə, dəyərlərimizə, birliyimizə hər zaman sahib çıxmalıdırlar.

"Hüquq fənləri" kafedrasının müəllimi Yunis Xəlilov çıxışında Xocalı soyqırımının düşünülmüş məkrli siyasətin bir parçası olduğunu qeyd edərək faciənin hüquqi tərəflərini diqqətə çatdırıb.

"Azərbaycan tarixi" kafedrasının müəllimi Nuray Məmmədli Xocalı soyqırımının baş verməsinə gətirib çıxaran səbəblərdən, faciənin nəticələrindən danışıb.

Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin "Yer quruluşu və daşınmaz əmlakın kadastrı" ixtisası üzrə II kurs tələbəsi, şəhid bacısı Kənarə Nuriyeva şəhid əmanətlərinə sahib çıxmağın, güclü və müstəqil Azərbaycanı qorumağın gəncliyin əsas vəzifəsi olduğunu qeyd edib.

Tədbirin bədii hissəsində İncəsənət fakültəsinin "Orkestr alətləri və dirijorluq" kafedrasının konsertmeysteri Əli Həsənovun və "Belkanto" vokal qrupunun ifasında müxtəlif musiqi nömrələri ifa edilib.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsi*

# “Elm Aylığı 2026” çərçivəsində “Elmdə müasir çağırışlar və innovativlik” mövzusunda elmi-praktik konfransın açılış mərasimi olub

Tədbirdən əvvəl magistrantların dissertasiya, monoqrafiya və metodik vəsaitlərindən ibarət sərgiyə baxış olub.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Universitetin rektoru Elbrus İsayev çıxışında bildirib ki, müasir dövrdə elm artıq əsas güc amilinə çevrilib və əvvəlki dövrlərdən fərqli olaraq bu gün inkişafın aparıcı qüvvəsi məhz elmdir. Rektor ölkə başçısının milli mentalitetin qorunması, multikulturalizm, süni intellekt və rəqəmsallaşma strategiyası ilə bağlı çağırışlarını xatırladaraq yeni elmi yanaşmaların formalaşdırılmasının vacibliyini vurğulayıb.











Çıxışının sonunda Elbrus İsayev gənclərə elmlə bağlı bir sıra tövsiyələr verib və elmlə məşğul olan şəxsləri təbrik edərək onlara yeni elmi nailiyyətlər arzulayıb.

Elm və innovasiya məsələləri üzrə prorektor Elsevər Əsədov “Elmdə müasir çağırışlar: yeni strategiyalar və trendlər” mövzusunda çıxış edərək qlobal elmi mühitdə baş verən dəyişikliklərdən, innovasiya əsaslı inkişaf modelinin əhəmiyyətindən və rəqəmsal transformasiyanın elmə təsirindən danışıb. Prorektor həmçinin universitetdə elmi-tədqiqatların keyfiyyətinin artırılması, innovativ layihələrin təşviqi və gənc tədqiqatçıların potensialının dəstəklənməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Magistratura və doktorantura mərkəzinin direktoru Çapay Quliyev “Elmdə keyfiyyət axtarışı, dayanıqlılıq, məsuliyyət və dürüstlük” mövzusunda, “İqtisadiyyat və marketinq” kafedrasının müdiri Eltun İbrahimov isə “Elm və biznes mühiti: sənaye əsaslı tədqiqatlar” mövzusunda məruzə ilə çıxış ediblər. Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə də öz növbəsində “Tələbə elmi-tədqiqatlarında mövcud reallıqlar, yeni çağırışlar və islahat istiqamətləri” mövzusunda fikirlərini bölüşüb.

Bədii hissədə Magistratura və doktorantura mərkəzinin incəsənət sahəsi üzrə magistratura pilləsində təhsil alan tələbələrinin ifasında Sevda Məmmədlinin “Memories”, Astor Piazzollanın “Libertango”, Ramiz Mirişlinin “Bir könül sındırmışam” və digər musiqi nömrələri səsləndirilib.

Qeyd edək ki, 4-27 mart tarixləri arasında davam edəcək konfrans müxtəlif mövzular ətrafında 4 panel üzrə müzakirə olunacaq. Eyni zamanda “Elm Aylığı” çərçivəsində elmi-tədqiqat bacarıqlarının inkişafına dair akademik təlimlərin təşkili nəzərdə tutulur.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# 5 Mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş tədbir keçirilib

Tədbirdən öncə universitetin tələbələrinin idman sahəsində qazandıqları uğurlardan ibarət sərgiyə və İdman muzeyinə baxış olub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edib. Rektor idmanın gənclərin sağlam həyat tərzinin formalaşmasında və mənəvi-psixoloji inkişafında mühüm rol oynadığını vurğulayıb. Həmçinin tələbələrin Azərbaycan Respublikası birinciliyində və Olimpiada çərçivəsində keçirilən müxtəlif idman yarışlarında qazandıqları nailiyyətlərdən danışıb.





Rektor qeyd edib ki, ölkəmizdə idmana göstərilən xüsusi diqqət və qayğı, eləcə də Prezident İlham Əliyevin bu sahədə imzaladığı fərman və sərəncamlar Azərbaycanın idman potensialının inkişafına mühüm töhfə verir.

Universitetin İdman Klubunun sədri Məmmədəli Rəhimov çıxışında qeyd edib ki, ali təhsil ocağında tələbələrin idmana cəlb olunması və onların fiziki inkişafının dəstəklənməsi məqsədilə hər il müxtəlif idman yarışları və turnirlər təşkil olunur. Klub sədri bildirib ki, bu yarışlar tələbələr arasında sağlam rəqabət mühitinin formalaşmasına, komanda ruhunun gücləndirilməsinə və gənclərin asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir.

Xarici dillər fakültəsinin “Tərcümə (ingilis-Azərbaycan dilləri)” ixtisası üzrə IV kurs tələbəsi, şahmatçı Nəsrin Babayeva tələbələr adından çıxış edərək, universitetdə gənclərin inkişafı üçün yaradılan şəraitdən danışıb. Şahmatçı çıxışında tələbələrin təhsil alması, eləcə də idmanla məşğul olması üçün göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə, xüsusilə rektora minnətdarlığını bildirib. Nəsrin Babayeva qeyd edib ki, yaradılan imkanlar tələbələrin həm akademik, həm də şəxsi inkişafına mühüm töhfə verir.

Tədbirin davamında idman sahəsində xüsusi fərqlənən tələbələrə universitetin rektoru tərəfindən təşəkkürnamələr təqdim olunub. Nəzərə çatdırılıb ki,





bu cür mükafatlandırmalar tələbələrin idmana marağının daha da artmasına və yeni uğurlar qazanmasına stimul verir.

Qeyd edək ki, 2025-ci ildə idman sahəsində NDU tələbələri bir sıra uğurlara imza atıblar. Bu uğurları qazanan tələbələr təkcə Pedaqoji fakültəni deyil, eyni zamanda universitetin digər fakültələrini də təmsil edirlər.

Belə ki, karate üzrə Tbilisi şəhərində keçirilən Grand Prix beynəlxalq turnirdə bir tələbə I yerə layiq görülüb. Bundan əlavə, beynəlxalq şahmat turnirində də universitetin bir tələbəsi I yer qazanıb.

Azərbaycan birinciliyində universitetin tələbələri qılıncoynatma və MMA üzrə I yerə, milli güləş üzrə III yerə, voleybol üzrə isə II yerə sahib olublar.

Naxçıvan Muxtar Respublikası birinciliyində tələbələrimiz stolüstü tennis üzrə iki nəfər I yerə, bir nəfər II yerə layiq görülüb. Həmçinin badminton üzrə üç nəfər I yerə, bir nəfər II yerə, boks üzrə isə iki nəfər I yerə sahib olub.

Regional çempionatda cüdo üzrə bir tələbə I yer qazanıb. Türkiyədə keçirilən Dostluq turnirində isə universitetin cüdoçu tələbəsi III yerin sahibi olub.

Tədbirin bədii hissəsində isə NDU nəzdində Musiqi Kollecinin tələbələrindən ibarət “Nuhçıvan Ritm” qrupu və “Bəzmicahan” rəqs kollektivinin ifasında rəngarəng musiqi və rəqs nömrələri nümayiş etdirilib. Tamaşaçılar tərəfindən böyük maraqla qarşılanan çıxışlar tədbirə xüsusi ab-hava qatıb.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU-da "Sabahın alimləri" müsabiqəsinin qızıl medalçıları ilə görüş keçirilib

Naxçıvan Dövlət Universitetində "Sabahın alimləri" XV Respublika Layihə Müsabiqəsinin qızıl medalçıları – NDU nəzdində İngilis dili təmayüllü Gimnaziyanın XI sinif şagirdləri Hüseyn Tahirov və Kənan Məmmədzadə ilə görüş keçirilib.

Gimnaziyanın komandası "Resept-Plus" adlı innovativ layihəsi ilə müsabiqənin final mərhələsində qalib olub və qızıl medalla mükafatlandırılıblar. Rektor Elbrus İsayev qaliblərlə görüşərək onları qələbə münasibətilə təbrik edib. Rektor bu uğuru sadəcə NDU-nun deyil, ümumilikdə Naxçıvan təhsilinin uğuru kimi qiymətləndirib. Komanda üzvlərinə müvafiq tövsiyələr verib və bu yolda onlara hər zaman dəstək olacağını bildirib.

Qaliblər Hüseyn Tahirov və Kənan Məmmədzadəyə, həmçinin onların mentoru Hüseyn İmanova təşəkkürnamə və müxtəlif hədiyyələr təqdim edilib.

Qalib komandanın üzvləri yaradılan imkanlara, diqqət və qayğıya görə NDU-nun rektoru Elbrus İsayevə öz minnətdarlıqlarını bildiriblər.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*









# 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü yad edilib

Naxçıvan Dövlət Universitetində 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə İncəsənət fakültəsinin müəllim və tələbələri tərəfindən çəkilmiş 31 Mart soyqırımı ilə bağlı 40-a yaxın rəsm əsərinin nümayiş olunduğu sərgiyə baxış olub.

Ardınca Ümummilli Lider Heydər Əliyevin, torpaqlarımız uğrunda canlarını fəda etmiş şəhidlərimizin və soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında qeyd edib ki, 31 Mart soyqırımı ermənilərin azərbaycanlılara qarşı törətdikləri mərhələli soyqırımı siyasətinin bir hissəsi idi. Rektor qeyd edib ki, 1998-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanan "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla faciəyə ilk dəfə dəqiq siyasi qiymət verilib. II Qarabağ müharibəsində Azərbaycan xalqının Ali Baş Komandanın ətrafında sıx birləşərək öz gücünü təsdiq etdiyini, soyqırımı qurbanlarının qisasının alındığını vurğulayıb.



Tarix üzrə fəlsəfə doktoru, dosent Abdulla Mustafayev bildirib ki, Türkmənçay müqaviləsindən sonra ermənilər Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülüb, "Böyük Ermənistan" xülyasını reallaşdırmağa çalışıblar. 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı ilə yanaşı, Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Zəngəzur və digər bölgələrdə erməni silahlı birləşmələri 50 mindən artıq azərbaycanlını qətlə yetirib, on minlərlə insanı isə doğma yurdlarından didərgin salıblar.









"Azərbaycanın yeni və ən yeni tarixi" ixtisası üzrə I kurs magistrantı Əsmər Hüseynzadə çıxışında 31 Mart soyqırımının tarixin ən qanlı səhifələrindən biri olduğunu qeyd edib. Vurğulayıb ki, bu qanlı faciə zamanı ermənilər uşaq, qadın və yaşlı fərqi qoymadan dinc əhaliyə qarşı amansız qırğınlar törədib, insanları kəsici və deşici alətlərlə qətlə yetirib, hətta diri-diri yandırıblar, memarlıq abidələrini, yaşayış məntəqələrini dağıdıblar.

Sonda 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş videoçarx izlənilib.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Naxçıvan Dövlət Universitetində 10 Mart – Azərbaycan Milli Teatr Günü qeyd olunub













Naxçıvan Dövlət Universitetində 10 Mart – Azərbaycan Milli Teatr Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan “Teatr və mədəniyyətşünaslıq” kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Gülxarə Əhmədova çıxışında Milli Teatr Gününün hər il qeyd olunmasının artıq ənənə halını aldığını vurğulayıb. Bildirib ki, bu münasibətlə müxtəlif teatr nümunələri hazırlanaraq tamaşaçılara təqdim olunur və belə tədbirlərin təşkil olunması bu sənətə marağın artırılmasında əhəmiyyətli rol oynayır.

Universitetin “Teatr və mədəniyyətşünaslıq” kafedrasının müəllimi, rejissor Nurbəniz Bağırovanın rəhbərliyi altında “Aktyor sənəti” ixtisası üzrə II kurs tələbələrinin iştirakı ilə yazıçı-dramaturq Kamal Abdullanın “Hərdən mənə mələk də deyirlər” əsəri əsasında hazırlanmış eyniadlı tamaşa Tələbə Teatr Studiyasının səhnəsində nümayiş etdirilib.

Bədii rəhbəri Gülxarə Əhmədova, quruluşçu rəssamı isə Cavid İsmayılov olan bu səhnə işi tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Tamaşadan sonra NDU-nun rektoru Elbrus İsayev çıxış edərək əlamətdar gün münasibətilə aktyorları təbrik edib, muxtar respublikada, eləcə də ölkə və beynəlxalq səviyyədə keçirilən tədbirlərdə universiteti uğurla təmsil edən tələbələrin fəaliyyətini yüksək qiymətləndirib. Rektor vurğulayıb ki, tələbələrin qazandıqları nailiyyətlər universitet üçün əsas qürur mənbəyidir.

Elbrus İsayev həmçinin əlavə edib ki, ali təhsil müəssisəsində aktyorluq sahəsi üzrə ölkənin tanınmış sənət adamları tədris prosesinə cəlb olunur və bu da gənc aktyorların peşəkar formalaşmasına mühüm töhfə verir.

Çıxışının sonunda rektor Tələbə Teatr Studiyasının fəaliyyətini yüksək qiymətləndirərək bu sahədə çalışan hər kəsə uğurlar arzulayıb. Bildirib ki, belə əlamətdar günlər teatr sənətinin yaşadılması, gənc aktyorların yetişdirilməsi və milli teatr irsinin təbliği baxımından xüsusi əhəmiyyət daşıyır.

Tədbirin sonunda universitetin mədəni həyatının zənginləşdirilməsinə verdiyi töhfələrə və 2025-ci il ərzində göstərdiyi səmərəli fəaliyyətinə görə İncəsənət fakültəsinin bir qrup müəllim və tələbəsi təşəkkürnamə ilə təltif olunub.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU-da Novruz şənliyi maraqlı anlarla yadda qalıb








Naxçıvan Dövlət Universitetində Novruz bayramı münasibətilə təntənəli şənlik təşkil olunub.

Tədbir qədim ənənələrə uyğun olaraq, Dədə Qorqud obrazının xeyir-duası və Bahar qızının təbriki ilə başlayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək Novruzun xalqımızın ən qədim, ən əziz bayramlarından biri olduğunu qeyd edib. Bildirib ki, bu gün işğaldan azad edilən əzəli-əbədi torpaqlarımızda Novruz sevinci yaşanır, bayram tonqalları qalanır. Rektor Naxçıvanın sosial-iqtisadi, mədəni inkişafı ilə bağlı görülən işlərdən bəhs edərək qeyd edib ki, bir neçə gün öncə Cənab Prezident İlham Əliyevin tarixi abidələrimizin bərpası üçün ayırdığı vəsait Naxçıvanın köklü dəyərlərinə göstərilən diqqətin bariz nümunəsidir. Elbrus İsayev həmçinin çıxışında universitetin əldə etdiyi uğurlardan, tələbələrin elmi və yaradıcı nailiyyətlərindən bəhs edib. Kollektivi bayram münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıb.

Ardınca Novruzun əsas atributlarından olan bayram tonqalı alovlandırılıb.

Şənlik proqramı çərçivəsində NDU nəzdində Texniki Kollecinin “Yallı” qrupu, Nağara qrupu və Naxçıvan Musiqi Kollecinin rəqs ansamblı maraqlı çıxışlarla tədbirə xüsusi rəng qatıb. Eyni zamanda fakültələr tərəfindən hazırlanmış Novruz sərgisinə baxış keçirilib, burada tələbələrin əl işləri, rəsm əsərləri nümayiş etdirilib. Sərgi zamanı Muğam üçlüyü və Saz qrupunun ifaları iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tədbirin bədii hissəsində Novruz bayramının fəlsəfi mahiyyəti – su, od, yel və torpaq ünsürləri üzərində qurulan səhnəciklər vasitəsilə təqdim olunub. “Dörd ünsürün mübahisəsi” kompozisiyası, Kosa və Keçəl obrazlarının məzəli çıxışları, yumurta döyüşdürməsi tamaşaçılara xoş ovqat bəxş edib.






Bundan əlavə, NDU nəzdində Gimnaziya və Beynəlxalq Kembric Məktəbi şagirdlərinin xor ifaları, musiqi nömrələri və müxtəlif ifaçıların çıxışları tədbirə xüsusi rəng qatıb.

Sonda Tələbə Teatr Studiyasının hazırladığı “Söylə” və “Tənzərə” yallıları universitet kollektivi ilə birgə oynanılıb. Bayram şənliyi yüksək əhval-ruhiyyə ilə başa çatıb.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Beynəlxalq Kembric Məktəbində “Oğuz elinin Novruzu”

Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbində “Oğuz Elinin Novruzu” adlı təntənəli bayram şənliyi keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ardınca Dədə Qorqudun və Bahar qızının səhnəyə gəlişi tədbirə rəmzi və milli ab-hava qatıb.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, Beynəlxalq Kembric Məktəbində təhsil Kembric sisteminə əsaslansa da, milli dəyərlərin qorunması, yaşadılması bizim üçün hər zaman ön plandadır. Novruzun xalqımızın ən əziz bayramlarından biri olduğunu qeyd edən rektor bütün tədbir iştirakçılarını, məktəb kollektivini bayram münasibətilə təbrik edib.















Şənlik çərçivəsində “Bahar gəlir”, “Bənövşə”, “Bahar xoş gəlib Azərbaycana” mahnıları və “Tənzərə yallısı”, “Cəngi” rəqsi kimi milli rəqs nömrələri təqdim olunub. Kosa və Keçəl obrazlarının məzəli çıxışları, xanın gəlişi tamaşaçılarda xoş ovqat yaradıb.

Tədbirdə xalqımızın zəngin folklor nümunələri təqdim olunub. Novruz ənənələrindən olan “Fincan oyunu” tamaşaçılar tərəfindən maraqla izlənilib.

Bayram şənliyi tonqalın qalanması və iştirakçıların birlikdə oynadığı “Yallı” rəqsi ilə başa çatıb.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# “Fortepiano” kafedrasının hesabat konserti təşkil olunub

Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsinin “Fortepiano” kafedrasının hesabat konserti keçirilib.

Tədbiri giriş sözü ilə açan “Fortepiano” kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, professor Səidə Məmmədova kafedranın tələbələrinin əzmkarlığından və bacarığından danışıb. Bildirib ki, qısa zaman ərzində bu qədər musiqi nömrəsinin hazırlanması tələbələrin zəhmətinin və istedadının göstəricisidir.





Bədii hissədə həm Azərbaycan, həm də xarici bəstəkarların əsərləri səsləndirilib. Belə ki, Fikrət Əmirovun “Gülərəm gülsən”, Səidə Məmmədovanın “Naxçıvanam”, Friderik Şopenin “Vals”, eləcə də Adil Bəbirovun “Skertso”, Tofiq Quliyevin “Bakı”, Şəfiqə Axundovanın “Həsrətindən” və digər musiqi nömrələri ifa olunub.

Sonda universitetin rektoru Elbrus İsayev çıxış edərək, tələbələrə növbəti yaradıcılıq fəaliyyətlərində uğurlar arzulayıb. Rektor qeyd edib ki, Naxçıvan Dövlət Universitetində ilk açılan ixtisaslardan biri “Fortepiano” ixtisasıdır və bu sahə universitet üçün xüsusi əhəmiyyət daşıyır. Bildirilib ki, dünya şöhrətli bəstəkarların bir çoxu məhz fortepiano üçün zəngin musiqi irsi yaradıblar. Elbrus İsayev konsert proqramının təşkilində əməyi keçənləri təbrik edib və bu cür tədbirlərin tələbələrin yaradıcılıq potensialının inkişafına mühüm töhfə verdiyini vurğulayıb.







Konsert proqramı tamaşaçılar tərəfindən maraqla qarşılanıb və iştirakçılara xoş əhval-ruhiyyə bəxş edib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# “Şəhərsalma və memarlıq ili”nə həsr olunmuş dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgi təşkil olunub







Naxçıvan Dövlət Universitetində “Şəhərsalma və memarlıq ili” çərçivəsində İncəsənət fakültəsinin “Təsviri incəsənət” kafedrasının baş müəllimi Əzizə Məmmədovanın rəhbərliyi ilə Təsviri incəsənət ixtisasında təhsil alan tələbələrin dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgi keçirilib.

Sərgiyə baxış zamanı Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını qeyd edən NDU-nun rektoru Elbrus İsayev Əzizə Məmmədovanı təbrik edib, onun respublika səviyyəli sərgilərdə iştirak etdiyini, uğurlu yaradıcılıq işlərinə imza atdığını və özünəməxsus yaradıcılıq xüsusiyyətlərinə malik olduğunu bildirib. Rektor universitetdə duz emalatxanasının yaradılması istiqamətində işlərin aparıldığından danışıb və əlavə edib ki, bu emalatxanada tələbə və müəllimlərin hazırladıqları hədiyyəlik, eləcə də satış üçün nəzərdə tutulan müxtəlif yaradıcılıq nümunələri, memarlıq və heykəltəraşlıq əsərləri təqdim olunacaq.

Tədbir zamanı İncəsənət fakültəsinin dekanı, dosent Cavid İsmayılov, “Təsviri incəsənət” kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Siddiqə Hacıyeva və “Musiqi tarixi və nəzəriyyəsi” kafedrasının müdiri, sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova da Əzizə Məmmədovanı təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıblar. Bildirilib ki, sərgidə tələbələrin sərbəst iş nümunələri, dərs müddətində və auditoriyadankənar hazırladıqları əsərlər nümayiş olunur.

Qeyd edək ki, sərgidə 100-dən artıq dekorativ-tətbiqi sənət nümunəsi təqdim olunub. Burada əsasən ebru sənət nümunələri, Naxçıvan duzundan hazırlanmış oyma və heykəltəraşlıq işləri, rəngkarlıq və vitraj nümunələri, şüşə üzərində oyma, milli ornamentlərdən ibarət kompozisiyalar, duzdan hazırlanmış bəzək aksesuarları sərgilənib. Eyni zamanda sərgidə patentləşdirilmiş duzdan hazırlanmış qadın zinət əşyaları da nümayiş etdirilib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU-da “Muğamımız məqamımızdır” adlı konsert təşkil olunub

Naxçıvan Dövlət Universitetində “Xanəndəlik” ixtisası üzrə təhsil alan tələbələr tərəfindən “Muğamımız məqamımızdır” adlı konsert proqramı təşkil olunub. “Orkestr alətləri və dirijorluq” və “Xalq çalğı alətləri” kafedralarının təşəbbüsü ilə baş tutan konsertdə Azərbaycan muğam sənətinin klassik nümunələrindən olan Zabul segah dəstgahı səsləndirilib.







# Naxçıvan Dövlət Universitetində “Women Hackathon” keçirilib

Naxçıvan Dövlət Universiteti İnnovasiya Mərkəzində qadınların texnologiya, liderlik və yaradıcılıq potensialını inkişaf etdirmək məqsədilə “Women Hackathon” təşkil olunub.

İki gün davam edən hakaton çərçivəsində iştirakçılar komandalar şəklində qadın liderliyi, sosial transformasiya, futuristik həllər, eləcə də kod və kreativliyin birləşməsi istiqamətləri üzrə konseptual layihələr hazırlayıb və münsiflər heyəti qarşısında təqdim ediblər.

Layihələr problemin dərindən dərk edilməsi, innovativlik, sosial təsir, texnoloji və metodoloji yenilik, eləcə də təqdimat bacarığı kimi meyarlar üzrə qiymətləndirilib.

Qiymətləndirmənin nəticələrinə əsasən, “Nexus of Logic” komandası I yerə, “IT Girls” komandası II yerə, “Logical Sparks” komandası isə III yerə layiq görülüb.






# Tibb fakültəsinin əməkdaşlarının yubileyi qeyd olunub



Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin dekan müavini, biologiya elmləri doktoru, dosent Ənvər İbrahimov və "Stomatologiya" kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru Rauf Cəfərovun 60 illik yubileylərinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus





İsayev yubilyarların universitetin elmi-pedaqoji həyatında səmərəli fəaliyyət göstərdiklərini qeyd edib. Bildirib ki, hər iki əməkdaşımız uzun illərdir universitetdə gənc mütəxəssislərin hazırlanmasına mühüm töhfələr verərək elmin və təhsilin inkişafında fəal rol oynayırlar. Rektor yubilyarları 60 illik yubileyləri münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb və Naxçıvan Dövlət Universitetinin Fəxri fərmanını təqdim edib.

Tibb fakültəsinin dekan əvəzi Şəfiqə Süleymanova çıxış edərək Rauf Cəfərovun elmi və pedaqoji fəaliyyətindən bəhs edib. Qeyd olunub ki, tibb üzrə fəlsəfə doktoru, Əməkdar müəllim Rauf Cəfərov, həmçinin 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub.

"Əczaçılıq və biokimya" kafedrasının müdiri Surə Rəhimova isə Ənvər İbrahimovun həyat yolu, elmi araşdırmaları və universitetdəki pedaqoji fəaliyyətindən söz açıb.

Elm və innovasiyalar üzrə prorektor Elsevər Əsədov çıxışında hər iki yubilyar universitetdə elmi mühitin formalaşmasına və tələbələrin ixtisaslı kadr kimi yetişməsinə göstərdikləri xidmətləri xüsusi qeyd edib.

Tədbirdə, həmçinin "Klinik fənlər və hərbi tibb" kafedrasının müdiri Gültəkin Əliyeva, həmin kafedranın professoru, tibb elmləri doktoru İsa Abdullayev və digər çıxışçılar yubilyarların elm və təhsil sahəsində fəaliyyətini yüksək qiymətləndirib, onların zəngin pedaqoji təcrübəsindən bəhs ediblər.

Daha sonra yubileyi qeyd olunan əməkdaşların həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub, onlara müxtəlif hədiyyələr təqdim edilib.

Sonda Ənvər İbrahimov və Rauf Cəfərov göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə və fakültə kollektivinə minnətdarlıqlarını bildiriblər.

# İnklüziv Təhsil Mərkəzinin fəaliyyətinə həsr olunmuş tədbir keçirilib

Naxçıvan Dövlət Universitetində İnklüziv Təhsil Mərkəzinin fəaliyyəti ilə bağlı tədbir təşkil olunub.

Tədbirdə çıxış edən İnklüziv Təhsil Mərkəzinin direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Taleh Xəlilov mərkəzin fəaliyyəti və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib. Bildirib ki, hazırda mərkəzdə sağlamlıq imkanları məhdud 4 tələbə təhsil alır, onlara xüsusi diqqət və qayğı göstərilir. Bu tələbələr üçün lazımi imkanlar yaradılır, həmçinin tədris prosesində ehtiyac duyulan ləvazimatlar mərkəz tərəfindən təmin edilir.

Magistratura və doktorantura mərkəzinin dekanı, psixologiya üzrə fəlsəfə doktoru, dosent Çapay Quliyev müntəzəm psixoloji konsultasiyaların, maarifləndirici seminarlar və müəllim-tələbə-valideyn əməkdaşlığının gücləndirilməsinin inklüzivliyin təmin olunmasında əsas mexanizmlərdən biri olduğunu vurğulayıb.

Psixoloji xidmət və uşaq inkişaf mərkəzinin psixoloqu Nuranə Səlimova





sağlamlıq imkanları məhdud tələbələrin psixoloji və sosial adaptasiyası zamanı yarana biləcək çətinliklərdən, maneələrdən, o cümlədən psixo-sosial dəstək zamanı psixoloqların rolundan danışıb.

İnklüziv Təhsil Mərkəzinin mütəxəssisi Lətifə Quliyeva mərkəzin gələcək plan və öhdəlikləri haqqında qısa məlumat verərək rəhbəri olduğu "Gələcəyə inam" qrupunun hazırladığı konsert proqramını təqdim edib. Konsert proqramında inklüziv tələbələrin ifasında "Qarabağ şikəstəsi", "Sarı gəlin", "Aşiqəm" və digər musiqi nömrələri səsləndirilib.

Universitetin psixoloqları Minə Əkbərli və Həcər Ələsgərovanın rəhbərliyi ilə "Psixologiya" ixtisası üzrə təhsil alan tələbələr tərəfindən psixoloji səhnəcik nümayiş olunub. Maarifləndirmə xarakteri daşıyan səhnəcik tədbir iştirakçılarına xoş təəssürat bağışlayıb.

Tədbirin sonunda ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək təşkilatçılara təşəkkürünü bildirib, inklüzivliyin ali təhsildə əhəmiyyətini vurğulayıb. Rektor mərkəzin uğurlu fəaliyyətini yüksək qiymətləndirərək kampusun inklüziv mühitə uyğunlaşdırılması istiqamətində işlərin davam etdirildiyini qeyd edib. Elbrus İsayev həmçinin tələbələrin hazırladığı səhnəciyin uğurlu təşkil olunduğunu söyləyərək onlara gələcəkdə inklüziv tədrislə bağlı təlimlərdə fəal iştirak etməyi və xarici ölkələrin təcrübəsindən yararlanaraq öz sahələrində tətbiq etməyi tövsiyə edib.

***Badəm Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Əməkdar mədəniyyət işçisi Tağı Tağıyevin dərs vəsaitinin təqdimatı keçirilib

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında universitetin nəzdində fəaliyyət göstərən Musiqi Kollecinin müəllimi, Əməkdar mədəniyyət işçisi, tarzən Tağı Tağıyevin "Tar üçün qammalar və çalışmalar" adlı dərs vəsaitinin təqdimatı baş tutub.

Tədbirdə NDU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov çıxış edərək rektor adından müəllifi təbrik edib, ona gələcək elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayıb. Prorektor "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası haqqında məlumat verərək, dərs vəsaitinin məhz bu konsepsiyanın prioritetlərinə uyğun şəkildə nəşr olunmasının əhəmiyyətini vurğulayıb.

NDU nəzdində Musiqi Kollecinin direktoru, Naxçıvan MR-in Əməkdar müəllimi Məhəbbət Babayeva müəllifin həyat və yaradıcılıq yolundan bəhs edərək bildirib ki, ömrünün yarıdan çoxunu sənətə və pedaqoji fəaliyyətə həsr edən Tağı Tağıyev həm praktiki,









həm də nəzəri bilikləri ilə musiqi təhsilinə dəyərli töhfələr verib.

Təqdimatda NDU-nun "Xalq çalğı alətləri" kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vahid Məmmədov və NDU nəzdində Musiqi Kollecinin müəllimi, Naxçıvan MR-in Əməkdar mədəniyyət işçisi Etiqad Seyidov da çıxış edərək kitab haqqında fikirlərini bölüşüblər.

Qeyd olunub ki, dərs vəsaitində 36 müxtəlif ştrix forması və 36 növ ritmik qruplaşma sistemi tətbiq edilib. Eyni zamanda tar ifaçılığında, xüsusilə qamma və etüdlərin ifası zamanı yarana biləcək texniki çətinliklərin aradan qaldırılması üçün xüsusi metodlar işlədilib. Çıxış edənlər vurğulayıblar ki, sözü gedən dərs vəsaiti ali və orta ixtisas musiqi təhsili müəssisələrində akademik fəaliyyət üçün faydalı resurs kimi istifadə oluna bilər.



Sonda müəllif Tağı Tağıyev çıxış edərək ona göstərilən diqqət və qayğıya görə rektora və kollektivə dərin minnətdarlığını bildirib, dərs vəsaitinin musiqi təhsilinə faydalı olacağına inandığını vurğulayıb.

Tədbir xatirə şəklinin çəkdirilməsi ilə yekunlaşıb.

# XATİRƏSİNƏ XII YÜZİLLİKDƏ MÖHTƏŞƏM TÜRBƏ UCALDILAN MÖMİNƏ XATUN KİMDİR?

İnsanların ən qədim zamanlardan məskunlaşdığı Azərbaycan ərazisində, o cümlədən onun ayrılmaz tərkib hissəsi və mühüm mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan bölgəsində tarixin müxtəlif dövrlərində xalq sənətkarları tərəfindən yaradılan zəngin mədəni irsin tərkibində Orta əsrlər zamanı Naxçıvan şəhərində və bölgənin digər yerlərində ucaldılmış tarix-memarlıq abidələri xüsusi yer tutur. Bu abidələrin bir hissəsi zaman keçdikcə təbii və digər qüvvələrin təsirindən məhv olaraq sıradan çıxsa da, müəyyən bir hissəsi dövrümüzə qədər nisbətən salamat və yaxud da yarımdağılmış vəziyyətdə gəlib çatmışdır. Ona görə də Orta əsr sənətkarlarının əməyinin məhsulu olan bu abidələrin qorunub saxlanması, tədqiqi, təbliği, bərpası və gələcək nəsillərə çatdırılması çox vacibdir.

Təqdirəlayiq haldır ki, ölkə ərazisində indiyədək qalan tarix və mədəniyyət abidələri yüksək səviyyədə dövlət qayğısı ilə əhatə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin genişmiqyaslı fəaliyyətində xalqımızın minilliklər boyu yaratdığı mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə diqqət və qayğı xüsusi yer tutur. Biz dövlət başçısının bu diqqət və qayğısını bütün fəaliyyəti ərzində həm Azərbaycan miqyasında, həm də konkret olaraq Naxçıvan bölgəsindəki tarix və mədəniyyət abidələrinə münasibətində görürük. Dövlət başçısının 2024-cü il fevral ayının 21-də imzaladığı Sərəncamla Orta əsr şəhərsalma mədəniyyətini özündə qoruyub saxlayan Ordubad şəhərinə Dövlət Tarix-Mədəniyyət Qoruğu statusu verildi. 22 may 2025-ci ildə isə tarix-memarlıq abidələrinə yüksək dövlət qayğısının parlaq nümunəsinin şahidi olduq. Həmin gün cənab Prezident “Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında” Sərəncam imzaladı. Dövlət başçısı bu sərəncamı Möminə xatun türbəsinin özünəməxsus tarixi görkəminin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması məqsədilə imzalamışdır. Bərpasına və qorunub saxlanmasına, gələcək nəsillərə çatdırılmasına çox böyük əhəmiyyət verdiyinə görə dövlət başçısı türbədə bu işlərin aparılması üçün sərəncamla Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 1 (bir) milyon manat vəsait ayırmışdır. Çünki Orta əsr Azərbaycan memarlığının ən möhtəşəm qollarından olan Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin 1175-1186-cı illərdə ucaltdığı Möminə xatun türbəsi geniş mənada Şərq memarlığının nadir nümunələrindən biridir. Bu möhtəşəm memarlıq abidəsi 1136-cı ildə tarix səhnəsinə çıxan Azərbaycan Atabəyləri dövlətinin banisi Şəmsəddin Eldənizin 1175-ci ildə vəfat edən xanımı Möminə xatunun xatirəsinə ucaldılmışdır.

Bəs xatirəsinə belə möhtəşəm türbə ucaldılan Möminə xatun kimdir? Möminə xatun Azərbaycan Atabəyləri (Eldənizlər) dövlətinin əsasını qoyan Şəmsəddin Eldənizin arvadı, dövlətin ən qüdrətli hökmdarlarından Atabəy Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın anasıdır. Bu görkəmli şəxsiyyətin adı elmi ictimaiyyətə özünün qəbri üzərində Orta əsr Naxçıvan şəhərinin Atabəylər meydanında XII əsrin sonlarında inşa edilən, hazırda indiki Əcəmi seyrəngahında əzəmətlə ucalan türbənin üzərindəki əsas kitabə vasitəsi ilə məlum olmuşdur. Sərdabəsində dəfn olunan qadının adı ilə “Möminə xatun türbəsi” yaxud da yerli əhali arasında “Atabəy günbəzi” kimi tanınan abidənin yuxarı hissəsində – frizində (qurşağında) göy kaşılı kərpiclərlə, iri, hündürlüyü 90 santimetrdən artıq hərflərlə ərəb əlifbasının kufi xətti ilə yazılmış kitabənin mətnindən aydın olur ki, bu möhtəşəm abidə Azərbaycan Atabəyləri dövlətinin banisi Şəmsəddin Eldənizin xanımı Möminə xatunun xatirəsinə ucaldılmışdır.

Möminə xatun ilk dəfə İraq Səlcuq sultanı II Toğrulun arvadı olmuşdur. Hətta onun Sultan Toğruldan Arslanşah adlı bir oğlu da dünyaya gəlmişdir. Sultan Toğrul 1135-ci ildə vəfat etdikdən sonra taxtaca sahib olan Sultan Məsud onun dul arvadı Möminə xatunu 1136-cı ildə vaxtilə vəzir əs-Sumayrami tərəfindən qul kimi satın alınan, ancaq sonradan diribaşlığı, yüksək qabiliyyəti, bacarığı sayəsində II Toğrulun sarayında böyük nüfuz qazanan, bu səbəbdən də sultanın şəxsi məmlükləri sırasına keçirilən və sultan mətbəxinin başçısı vəzifəsinə təyin edilən Şəmsəddin Eldənizlə evləndirir. Möminə xatunun Atabəy Şəmsəddin Eldənizlə izdivacından Atabəy Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan adlı iki oğlu və bir qızı dünyaya gəlmişdi. Mənbələrdə Möminə xatunun doğum tarixi haqqında heç bir məlumat gəlib çatmamışdır. Ancaq yeni evlilikdən iki oğlan və bir qız dünyaya gətirməsinə əsasən demək olar ki, Şəmsəddin Eldənizlə evlənərkən Möminə xatun təxminən 30 yaşlarında olmuşdur.

Şəmsəddin Eldəniz bu evlilikdən əvvəl, Eldənizlər sarayına gəldiyi ilk zamanlardan saray əhli arasında böyük nüfuz qazanmış, hətta bu səbəbdən əmir rütbəsinədək yüksəlmişdi. O, özünün müsbət keyfiyyətləri ilə hökmdarın diqqətini cəlb etmiş, nəticədə Sultanın azyaşlı oğlu Arslanşahın atabəyi təyin olunmuşdu. Həmin vaxtlar Şəmsəddin Eldəniz özünün diqqətəlayiq, xeyirxah işləri ilə bütün saray əhli kimi, dövrünün görkəmli şəxsiyyətlərindən sayılan və İraq Səlcuq sultanlığı sarayında böyük nüfuz və söz sahibi olan birinci xanım, sultan II Toğrulun arvadı, Arslanşahın anası Möminə xatunun da diqqətini özünə çəkə bilmişdi. Tarixə Azərbaycan Atabəyləri dövlətinin qurucusu kimi daxil olan Şəmsəddin Eldəniz ona xüsusi hörmət və iltifat göstərən bu ağıllı qadının göstərişlərinə həmişə canla-başla əməl edərək heç vaxt saraydaxili münaqişələrə, intriqalara qarışmamış və bir-biri ilə kəskin mübarizə aparan, gizli ədavət saxlayan əmirlərin birləşdiyi hər hansı bir qrupun tərəfini saxlamamış, bitərəf mövqe tutmuşdu. Bu vəziyyət onun Möminə xatunla evliliyi dövründə də davam etmişdi.



Şəmsəddin Eldənizlə evləndikdən sonra Möminə xatun ərinin ən yaxın məsləhətçisinə çevrilmişdi. Eldənizlər dövlətinin birinci xanımı kimi Möminə xatun tədbirli siyasəti, yüksək qabiliyyəti, bacarığı və ağlı ilə sarayda və xalq arasında böyük hörmət qazanmışdı. Bu səbəbdən də o, Azərbaycan Atabəyləri (Eldənizlər) dövləti kimi nəhəng bir dövlətin sosial-siyasi və mədəni həyatında fəal rol oynamış, özünün ağıllı məsləhətləri və tövsiyələri ilə dövlətin idarə olunmasında yaxından iştirak etmişdir. Buna görə də ərinin böyük etibarını qazanan Möminə xatunu Şəmsəddin Eldəniz ən yaxın silahdaşı kimi ölkənin müxtəlif yerlərinə səyahətləri zamanı özü ilə aparmış, bütün məsələlərin, xüsusilə dövlət əhəmiyyətli məsələlərin həllində onun fikir, tövsiyə və məsləhətlərin dinləmiş və qərar verərkən nəzərə almışdır.

Atabəylər dövlətinin təşəkkül və çiçəklənmə dövründə, başqa sözlə desək, Möminə xatunun vəfatınadək bu vəziyyət belə davam etmiş, Möminə xatun dövlətin siyasi həyatında fəal rol oynamışdır. O, ağlı və bacarığı sayəsində məqsədyönlü manevrlər edərək sarayda yaranan ziddiyyətləri vaxtında aradan qaldıra bilmişdi. O, hətta 1161-ci ildə İraq sultanlığında hakimiyyətə keçmiş Sultan II Toğruldan olan oğlu Arslanşahla əri Şəmsəddin Eldəniz arasında yaranan ziddiyyətləri aradan qaldıra və onlar arasında normal münasibətlərin yaranmasına nail ola bilmişdi.

Ağıllı, diplomatik və məqsədyönlü gedişləri ilə Möminə xatun oğlu sultan Arslanşahla Azərbaycan atabəyi Şəmsəddin Eldəniz arasındakı ziddiyyətləri yumşaltmış, hətta aradan qaldırmışdı. Nəticədə, Arslanşahla atalığı Şəmsəddin Eldəniz arasında münasibətlər normal məcraya düşmüşdü. Bununla da, Möminə xatun oğlu ilə əri arasında baş verə biləcək qarşıdurmaların, xoşagəlməz hadisələrin, hətta reallaşmaqda olan müharibələrin qarşısını almışdı. Beləliklə, bu cür ağıllı, tədbirli və cəsarətli manevrləri sayəsində Möminə xatun Şəmsəddin Eldənizin hakimiyyətinin möhkəmlənməsinə və bütün sultanlığın gerçək sahibinə çevrilməsinə nail olmuşdu. Nəticədə isə oğlu Arslanşahın fəaliyyəti dövlət başçısı rolunun formal icrası ilə məhdudlaşdırılmış şəxsə çevrilmişdi. Heç təsadüfi deyildir ki, Möminə xatunun sağlığı dövründə Azərbaycan Atabəylər dövləti yarandığı zamandan 1160-cı ilədək uğurlu təşəkkül, 1161-ci ildən sonra isə çiçəklənmə dövrü keçirmiş, yüksək səviyyədə inkişaf etmiş, güclü bir dövlətə çevrilmişdi.

Möminə xatun saray əhli arasında olduğu kimi, xalq arasında da böyük hörmət və nüfuz qazanmışdı. Bu isə onun daima xalqla bir yerdə olması, əhalinin taleyüklü məsələləri, vəziyyəti, problemləri ilə yaxından maraqlanması nəticəsində ədə olunmuşdu. Məlumdur ki, Möminə xatunun yaşadığı XII əsr Azərbaycanda elmin, təhsilin və mədəniyyətin intibahı dövrü olmuşdur. Möminə xatun məhz belə bir dövrdə ölkədə elmin, maarifin və mədəniyyətin inkişafına da diqqət və qayğı göstərmişdir.

Möminə xatun 1175-ci ilin oktyabr ayında vəfat etmişdir. Adına əlavə olunan və türk xalqlarında hökmdar arvadlarına, xüsusilə xaqanların həyat yoldaşlarına verilən “xatun” tituluna əsasən deyə bilərik ki, vəfat edərkən o, təxminən 75 yaşında olmuşdur. Çünki “xatun” titulu türk xalqlarında 55-75 yaşlı qadınlara müraciət forması olmuşdur. Ölümündən sonra Naxçıvan şəhərində dəfn olunan Möminə xatunun qəbri üzərində görkəmli memar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə bu il anadan olmasının 900 illik yubileyini qeyd edəcəyimiz Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən möhtəşəm türbə ucaldılmışdır. Ancaq əri Şəmsəddin Eldəniz özü də Möminə xatunun ölümündən bir ay sonra dünyasını dəyişdiyi üçün türbə atasını hakimiyyətdə əvəz edən oğlu Atabəy Məhəmməd Cahan Pəhləvan tərəfindən inşa etdirilmişdir. Üzərindəki kitabənin məlumatından aydın olur ki, türbənin inşası hicri-qəməri təqvimi ilə 582-ci ilin məhərrəm ayında (miladi ilə 24.03-23.04.1186-cı ildə) başa çatdırılmışdır. Sağlığında öz şəxsiyyətində birləşdirdiyi müsbət və nadir keyfiyyətlərinə görə bütün ömrü boyu Naxçıvanda yaşayan və vəfat etdikdən sonra orada da torpağa tapşırılan Möminə xatunun qəbri üzərində inşa edilən, özündə Azərbaycan türk qadınının incəliyini, paklığını, ismətini, vüqarını, zəkasını, əzəmətini və digər müsbət keyfiyyətlərini əks etdirən türbənin əsas kitabəsində onun adı “dünyanın və dinin şöhrəti, islamın və müsəlmanların şərəfi” kimi epitetlər ilə müşayiət olunmuşdur.

Türbə 1186-cı ildən bəri 840 ildir ki, təbii qüvvələrin təsirinə mətanətlə sinə gərərək Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalır, seyr edənləri öz əzəməti və gözəlliyi ilə heyran edir, qəlblərini fərəh hissi ilə doldurur. Ona görə də müsəlman Şərqində qadının – ananın şərəfinə ucaldılan ilk abidələrdən biri olan Möminə xatun türbəsinin ömrünü daha da uzatmaq, gələcək nəsillərə ərməğan etmək üçün əsaslı tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac var idi. Bu baxımdan türbənin bərpası və konservasiyası haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan Sərəncam vaxtında qəbul olunmuş, mühüm dövlət sənədi kimi böyük əhəmiyyətə malikdir. Buna görə də dövlət başçısının Möminə xatun türbəsi ilə əlaqədar imzaladığı bu sərəncam Naxçıvan Muxtar Respublikası, geniş mənada Azərbaycan əhalisi, xüsusilə ziyalılar tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılanmışdır. Dövlət başçısının Möminə xatun türbəsinə diqqət və qayğısının parlaq ifadəsi olan bu sərəncam Azərbaycan ərazisində indiyədək gəlib çatan tarix və mədəniyyət abidələrinin, bütövlükdə çox zəngin mədəni irsimizin yüksək dövlət qayğısı ilə əhatə olunmasının göstəricisidir.

*Hacıfəxrəddin Səfərli*
*AMEA-nın müxbir üzvü,*
*Naxçıvan Dövlət Universitetinin professoru*

# Milli musiqimizin keşiyində duran sənətkar

Azərbaycan Respublikasının xalq artisti, professor, peşəkar dirijor, pedaqoq Ağaverdi Paşayev milli musiqi mədəniyyətimizin inkişafında böyük xidmətlər göstərən dəyərli sənətkarlarımızdandır. O, uzun illərdir ki, sənəti, yaradıcılığı və pedaqoji fəaliyyəti ilə musiqi mühitində böyük nüfuz qazanıb.

Ağaverdi müəllim həm də vətənpərvər, xeyirxah, alicənab, səmimi bir insandır. O, musiqi ictimaiyyəti nümayəndələri, ziyalılar, müxtəlif peşə sahibləri tərəfindən kifayət qədər tanınır, sevilir, yaradıcılığı hər zaman rəğbətlə qarşılanır.

Ağaverdi Ağaəli oğlu Paşayev 27 oktyabr 1950-ci ildə Bakı şəhərində anadan olmuşdur. Kiçik yaşlarından musiqiyə olan həvəsini görən atası ona balaca bir tar alır və musiqi məktəbinə gətirir. Beləliklə, ilk musiqi təhsilini 12 №li uşaq musiqi məktəbində alır. Məktəbdə o, əvvəl Nadir Əhmədovun, sonra isə Ağasaleh Abbasəliyevin tar sinfində oxuyur.

Uşaq musiqi məktəbində təhsil aldığı illərdə respublikada keçirilən "Oxu tar", "Sən nəğmələr qoş", "Oxu bülbül" adlı müxtəlif müsabiqələrdə Ağaverdi Paşayev fəal iştirak edərək dəfələrlə laureat adı qazanmışdır. Qeyd etmək lazımdır ki, Ağaverdi müəllim o zaman hələ üçüncü sinif şagirdi idi. Zaman keçdikcə Ağaverdi Paşayev daha böyük, nüfuzlu respublika müsabiqələrində çətin və maraqlı proqramlar nümayiş etdirərək uğurlar qazanmışdır. Bu müsabiqələrdəki qalibiyyətləri onun ilk sənət uğurları olmuşdur.

Musiqiyə, xüsusən də tar alətinə olan sevgisi Ağaverdi Paşayevi 1966-cı ildə A.Zeynallı adına Musiqi Texnikumuna (Musiqi Kolleci) gətirib çıxarır. Burada Ağaverdi Paşayev Ağasaleh Abbasəliyev və Elxan Müzəffərovun sinfində təhsil alır. 1971-ci ildə təhsilini uğurla bitirdikdən sonra Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına (Bakı Musiqi Akademiyası) daxil olur. Konservatoriyada o, "Tar" ixtisası üzrə Kamil İbrahimovdan dərs alır.

Təhsil aldığı dövrdə Ağaverdi Paşayev dirijorluq sənətinə maraq göstərməyə başlayır. Konservatoriyanın ikinci kursunu bitirdikdən sonra Ağaverdi Paşayev rektor Soltan Hacıbəyova ərizə ilə müraciət edərək, Dirijorluq fakültəsinə köçürülməyini xahiş edir və imtahandan müvəffəqiyyətlə keçdikdən sonra o, Dirijorluq fakültəsinə köçürülərək arzusuna çatır. Dirijorluq fakültəsində Ağaverdi Paşayev Nicat Məlikovun sinfində artıq ciddi şəkildə, professional səviyyədə dirijorluqla məşğul olmağa başlayır.

Konservatoriyanı bitirdikdən sonra hərbi xidmətə çağırılır, burada hərbi orkestrin dirijoru vəzifəsində fəaliyyət göstərir.

Ağaverdi müəllim hər zaman böyük orkestrlərlə işləmək həvəsində olmuşdur. Və onun bu arzusu 1999-cu ildə reallaşır. Belə ki, həmin ilin sentyabrında Filarmoniyada fəaliyyət göstərən Dövlət Mahnı və Rəqs Ansamblına rəhbər təyin edildikdən bir müddət sonra Ağaverdi müəllim Dövlət Xalq Çalğı Orkestrini yaratmaq kimi vacib və məsuliyyətli bir iş təklifi alır. Təklifi məmnuniyyətlə dəyərləndirən Ağaverdi müəllim bu işin öhdəsindən layiqincə gəlir və Azərbaycan Dövlət Akademik Filarmoniyasının nəzdində Xalq Çalğı Orkestrini yaradır. Az müddətdən sonra 2000-ci ilin mart ayında Heydər Əliyev sarayında Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbirdə Xalq Çalğı Orkestrinin ilk konserti keçirildi. Tədbirdə iştirak edən Heydər Əliyev konsertdən sonra adəti üzrə səhnə arxasına keçərək sənətkarlarla görüşdü, sonra Ağaverdi müəllimə və orkestrantlara öz fikirlərini və tövsiyələrini bildirdi. Azərbaycanda Xalq Çalğı Orkestrinin yaranmasından, bu işdə xidmətləri olan dahi Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Səid Rüstəmov və digər bəstəkarlar haqqında danışdı. Heydər Əliyevin verdiyi tövsiyələr, dəyərli fikirlər Ağaverdi müəllimi ruhlandıraraq daha yüksək zirvələr fəth etməyə sövq etdi.

Xalq Çalğı Orkestrinin bugünkü uğurlu fəaliyyətində, öz nailiyyətləri ilə milli musiqimizin, ümumilikdə musiqi mədəniyyətimizin tanınmasında və təbliğində Ağaverdi müəllimin xidmətləri əvəzsizdir.

Ağaverdi Paşayevin repertuarı çox geniş diapazona malikdir. Repertuarda milli müəlliflərimizin müxtəlif janrlı əsərləri, xüsusi olaraq Xalq Çalğı Orkestri üçün yazdıqları əsərlər, xarici ölkə bəstəkarlarının əsərlərinin orijinal işləmələri, eləcə də xalq mahnıları və onların solist və orkestr üçün işləmələri mühüm yer tutur. Qeyd etmək lazımdır ki, Ağaverdi müəllim həm də yeni əsərlərin ilk ifaçısı və mahir interpretatoru kimi tanınır.

Ağaverdi müəllim daim yenilik axtaran novator sənətkardır. O, müasir bəstəkarların yaradıcılığına və daha az ifa olunan əsərlərə müraciət edir. Və nəticədə bu gün Xalq Çalğı Alətləri Orkestrinin ifasında müasir üslublu, yeni ifadə vasitələri ilə zəngin əsərlər səslənir. Eyni zamanda orkestrin repertuarı da bu əsərlər sayəsində genişlənir. Naxçıvan Dövlət Universitetinin "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında çalışan bəstəkarlarımız, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimləri Kamal Əhmədov və Yaşar Xəlilovun Xalq Çalğı Orkestri üçün bəstələdikləri əsərləri də Ağaverdi Paşayev böyük məmnuniyyətlə səsləndirir.

Xalq Çalğı Orkestri ilə çıxış edən ifaçılar da respublikamızda və beynəlxalq aləmdə tanınan, sevilən ustad sənətkarlardır. Xalq artistləri Lütfiyar İmanov, Fidan Qasımova, Xuraman Qasımova, Azər Zeynalov, Samir Cəfərov, tarzən Ramiz Quliyev, kamança ifaçısı Habil Əliyev, xanəndələrdən Arif Babayev, Alim Qasımov, Mənsum İbrahimov, Nəzakət Teymurova, Aygün Bayramova və digərləri Ağaverdi Paşayevin rəhbərlik etdiyi Xalq Çalğı Orkestrinin müşayiəti ilə müxtəlif janrlı klassik əsərlər, həmçinin muğam dəstgahları ifa etmişlər.

İfaçılarla yanaşı, təbii ki, müşayiətçinin də rolu çox məsuliyyətlidir və bu baxımdan Ağaverdi Paşayevin orkestri yalnız alqışa layiqdir. Bu orkestrin bir neçə konsertində mən tamaşaçı kimi iştirak etmişəm, hər dəfə ifa olunan əsərlərin tamaşaçılar tərəfindən necə maraqla qarşılandığının, eyni zamanda



orkestranların əsərləri necə həvəslə, böyük zövqlə ifa etdiklərinin şahidi olmuşam. Bu isə məlum olduğu kimi, bəstəkar və ifaçılarla yanaşı, dirijorun peşəkarlığının, ustalığının mühüm göstəricisidir.

Ağaverdi Paşayev həm də gözəl pedaqoqdur. O, 1979-cu ildən Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyətə başlamış, eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Xalq çalğı alətləri" kafedrasında Dirijorluq fənnini tədris etmişdir. Müəllim kimi çalışdığı dövrdə Ağaverdi Paşayev tələbələrdən ibarət Xalq Çalğı Alətləri Orkestri yaratmışdır. Daha sonralar, 1994-cü ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində müəllimlik fəaliyyəti ilə yanaşı Uşaq Orkestri yaratmışdır.

Ağaverdi Paşayevin əməyi dövlət tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir. Əməkdar incəsənət xadimi, Prezident mükafatçısı, "Qızıl Cəng" Beynəlxalq mükafatı laureatı, "Humay" mükafatı laureatı, TÜRKSOY-un 20 illik yubiley medalı, Azərbaycan Respublikasının Prezidentinin fərdi təqaüdü və digər mükafatlar Ağaverdi Paşayevin musiqi mədəniyyətinin inkişafında, milli musiqimizin dünya arenasında tanınması sahəsində göstərdiyi xidmətlərin və bu sənətə verdiyi əvəzsiz töhfələrin göstəricisidir.

Ağaverdi müəllimi doğum günü münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, yaradıcılıq uğurları arzu edirik!

*İnara Məhərrəmova*
*"Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının dosenti*

# Novruz mərasimləri tarixi qaynaqlarda

Novruz mərasiminin mifologiya və tarixi kökləri o qədər qaynayıb qarışmış şəkildədir ki, gerçək mənzərəni aydınlaşdırıb üzə çıxarmaq üçün tarixə mifologiya, mifologiyaya da tarix qapısından baş vurmaq lazım gəlir. Astroloji zəmin mifoloji qaynağa söykənən Novruz mifləri ritual səciyyəsi daşıyan sistemli mərasim kompleksini hərəkətə gətirən sakral mətnlərdir. Bu mətnləri söyləyənlər onların mahiyyətindən gerçək və fövqaladə gücə malik qüvvənin olduğuna inanırlar. Reallıqla təxəyyülün qovuşuğunu əks etdirən bu əsatirlər geniş coğrafi məkan və dərin bir tarix içinə yerləşmişlər. Taixi qaynaqların verdiyi bilgilərdən aydın olur ki, Novruz mərasimi dörd mövsümün bəlli olduğu coğrafi və iqlim qurşaqlarında geniş məkan və dərin bir zaman içinə yerləşərək müxtəlif adlar altında öz mövcudluğunu sürdürən qədim bir ritualdır. Novruz günlərində – 21 mart və onun davamı olan ilk günlərdə icra olunan bu mərasim öz daxili mahiyyəti etibarı ilə "qurtuluş", "barış", "ədalət", "diriliş-doğum", "bolluq-bərəkət", "sağlıq-şəfa", "aydınlıq" və başqa qavrayış təsəvvürləri çevrələyir. Bu gün Anadoluda Taxtacı ələviləri arasında Novruz bayramı zamanı "barış" və "qurtluşu"u ifadə edən "Qəfəsdən quş uçurma" adəti Sasani dönəmi Novruz şənliklərində də icra olunmuşdur. Sasani dönəmi Novruz bayramında simvolik olaraq hər gün bir ağ qartalı azad edərlərdi. Ağ rəng "barış-sülh", quşu qəfəsdən buraxıb uçurtmaq isə "azadlıq-müstəqillik" anlamı daşıyırdı. Rus alimi V.Mironov buna bənzər bir adətin Rusiyanın Kirov vilayətindəki Slavyan kəndlərində mart ayının Novruza uyğun gələn günlərində hələ də yaşadığını qeyd edir. Yerli xalq bu adətin adına "qəfəsdəki quşların uçurulması" adı vermişlər. Novruzun bahar fəslinin yeni il kimi Çində həm də "əkinçilik bayramı" sayılmasından söz açan M.S.Ordubadinin qeydləri də maraq doğurur. Çin xalqı martın doqquzunda (miladi 21 mart) torpaqdan düzəldilmiş bir öküzü darvazadan çıxarıb bayramı onunla başlar. Bu isə onlarda cüt öküzünün işə çıxdığına və əkin işlərinə başladığına işarətdir. Novruza qədim türk dastanlarından olan "Oğuz Kağan"da rast gəlinir. Qara xandan bir oğlan oldu. Adını "Oğuz xan "qoydular. Oğuzun doğumu ilə çiçəklər, ağaclar,



yer üzü yeni həyata başladı. Oğuz bir neçə il sonra ilin həmin vaxtı öz rəqiblərinə və düşmənlərinə qalib gələrək Talaş şəhərindən Buxaraya qədər böyük bir ərazini fəth etdi. O gündən etibarən hər il həmin gün "Böyük düyün", "Böyük şənlik", "Oğuz günü", "Yeni gün – Novruz " adı altında bayram edildi. Monqol xaqanı Kubilay xanın himayəsində uzun illər çalışan səyyah M.Polo (1254-1324) səfər qeydlərində türklərin 21 martda "Kımız bayramını", "Yeni il" və "Baharın gəlişi"ni bayram etdiklərindən bəhs etmişdir. Prof. M.Altok Kaşqarlı "Divan"nın "Dünyanın fəthi tarixi" bölümünə istinadən uyğurların "Buğu kağan əfsanəsi"ndə "Yaradılış", "Yenidən doğuş" və "İlk yaz" adlı bahar bayramından söz açaraq, bu bayramın "Novruz" olduğunu, Alp Ər Tonqa əfsanəsi ilə Buğu kağan əfsanəsinin eyniyyət kəsb etdiyini irəli sürür. O, Hancərlioğlu da Alp Ər Tonqanı Buğu kağanla eyniləşdirir. Bahəddin Ögəl isə Alp Ər Tonqa ilə Əfrasiyabın həm mifoloji obraz, həm də tarixi şəxsiyyət kimi eyni olduğuna şübhə ilə yanaşır. Əbu Reyhan Əl Biruni mərasimin tərkibindəki rəmzi məcazi obrazlardakı mifoloji və tarixi işarələrə istinad edərək İran qaynaqlarına əsasən "Novruz"u dünyanın başlanğıcına bir işarət sayır. Biruni "Qədim xalqlardan qalmış yadigarlar", "Qanuni Məqudi" və "Ət Təhkim" əsərlərində Novruzun İslam ölkələrində (Turan, İran ölkələrində və bəzi Ərəb qövmlərində) bayram edildiyindən ayrıca söz açmışdır (937-1048).

Son nəticədə Novruzun mifoloji və tarixi baxımdan təhlili göstərir ki, bu qədim mərasim insanlığın ibtidai çağlarından başlamış ən müxtəlif tarixi inkşaf mərhələlərindən həyat tərzinin izlərini – qalıntılarını özündə yaşadır, tarixi bu günə və sabaha daşıyır. Bu mövsüm-təqvim mərasimi çeşidli tarixi-siyasi səbəblər üzündən Ərgənəkon, Cəmşid, Kava, Həzrət Əli və başqa motiv və obrazlara qaynaq edilmiş olsa da öz ilkin, təbii doğuluşundakı əsil mahiyyətini indi də qoruyub saxlamaqdadır.

*Əli Allahverdiyev*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Qədimdən gələn qürur və ümidin bayramı — Novruz



Təbiətin nəfəsi dəyişəndə, qışın sərt səssizliyi yerini baharın zərif pıçıltısına verəndə Azərbaycan torpağında min illərin yaddaşını oyadan bir bayram gəlir – Novruz. Bu bayram sadəcə təqvimdə qeyd olunan bir gün deyil. O, xalqın ruhudur, tarixidir, yaddaşıdır, ümididir. Hər bahar gələndə torpaq necə yenidən dirilirsə, Novruz da insanların qəlbində yeni ümidlərin, yeni arzuların cücərməsinə səbəb olur.Mən bu adı səsləndirən də belə sanki ürəyimə bahar gəlir. Xoş bir təravət, baharın ətrini hiss edirəm sanki. Bilmirəm bəlkə də bu əcdadlarımız bizə qoyub getdiyi mədəni irsin isti ətridir. Bəlkə buna görə bu bayramı bu qədər sevirəm. Novruz bayramı çox qədim tarixə malikdir. Tarixi mənbələr göstərir ki, bu bayramın kökləri minilliklərin dərinliyinə, qədim Şərq sivilizasiyalarına qədər uzanır. Novruz sözünün mənası "yeni gün" deməkdir. Bu, sadəcə yeni bir gün deyil, həm də yeni başlanğıcın, yenilənmənin və həyatın davamlılığının rəmzidir. Qədim zamanlarda insanlar təbiətin oyanmasını, günəşin istiliyinin artmasını, torpağın yenidən məhsuldar olmasını böyük sevinc və ümidlə qarşılayırdılar. Bu sevinc zaman keçdikcə bayrama çevrildi və nəsildən-nəslə ötürülərək xalqın ən əziz ənənələrindən biri oldu. Azərbaycan xalqı üçün Novruz həm də milli kimliyin və mədəniyyətin ayrılmaz bir hissəsidir. Bu bayramın gəlişi ilə evlərdə təmizlik işləri aparılır, həyətlər səliqəyə salınır, sanki insanlar yalnız evlərini deyil, həm də ürəklərini təmizləyirlər. Çünki Novruz insanları kin-küdurətdən uzaqlaşdıran, barış və mərhəmətə çağıran bir bayramdır. Novruzun ən gözəl ənənələrindən biri dörd çərşənbədir. Su, Od, Yel və Torpaq çərşənbələri təbiətin oyanmasının mərhələlərini simvolizə edir. Su çərşənbəsində həyatın mənbəyi olan suya hörmət göstərilir. Od çərşənbəsində tonqallar qalayaraq insanlar qaranlıqdan və pislikdən təmizləndiklərinə inanırlar. Yel çərşənbəsi baharın nəfəsini, torpağın oyanmasını xəbər verir. Torpaq çərşənbəsi isə həyatın başlanğıcını, torpağın dirçəlişini simvolizə edir. Novruz süfrəsi də bu bayramın ən gözəl rəmzlərindən biridir. Süfrədə yerləşdirilən səməni, təbiətin yenilənməsinin və həyatın davamlılığının simvoludur. Rəngarəng şirniyyatlar, şəkərbura, paxlava, qoğal və digər nemətlər bolluğun, ruzi-bərəkətin nişanəsidir. Hər evdə qurulan bu süfrə yalnız yemək üçün deyil, həm də birlik və paylaşma üçün qurulur. Novruz həm də uşaqların sevincidir. Tonqalın ətrafında gülüşlər eşidilir, uşaqlar papaq atır, qapılar döyülür, səməni ətrafında mahnılar oxunur. Bu səslər sadəcə oyun deyil, xalqın mədəni yaddaşının yaşamasıdır. Tarix boyu Azərbaycan xalqı müxtəlif çətinliklərdən keçsə də Novruz bayramı heç vaxt unudulmadı. Çünki bu bayram insanlara ümid verirdi. Müxtəlif dövrlərdə qadağalar olsa belə, insanlar bu bayramı qəlblərində yaşatdılar. Nəhayət, müstəqillik illərində Novruz yenidən dövlət səviyyəsində qeyd olunmağa başladı və xalqın ən sevimli bayramlarından biri kimi daha da böyük təntənə ilə keçirilir. Novruz həm də barış və mərhəmət bayramıdır. Bu gün insanlar küsülüləri barışdırır, bir-birinin evinə qonaq gedir, böyüklərin xeyir-duasını alırlar. Çünki bu bayram insanlara xatırladır ki, həyatın ən böyük dəyəri birlik və sevgidir. Baharla birlikdə gələn Novruz insanlara bir həqiqəti xatırladır: həyat daim yenilənir. Necə ki, qışdan sonra bahar gəlir, qaranlıqdan sonra işıq doğur, insan da ümidini itirməməlidir. Novruz bizə öyrədir ki, hər çətinliyin sonunda bir bahar var.Azərbaycan torpağında yanan hər tonqal, cücərən hər səməni, səslənən hər bayram mahnısı bir xalqın min illik tarixinin davam etdiyini göstərir. Novruz yalnız bir bayram deyil – o, xalqın ruhunun, mədəniyyətinin və tarixinin yaşayan simvoludur.Hər il bahar gələndə Azərbaycan torpağında bir ümid yenidən doğulur. Hər tonqal alovunda keçmişin xatirəsi, gələcəyin arzusu yanır. Bu alov sönmədikcə Novruz da yaşayacaq. Çünki Novruz yalnız baharın gəlişi deyil, həm də millətin ruhunun yenidən dirçəlişidir.

*Səkinə Əhmədova*
*Jurnalistika ixtisası üzrə*
*III kurs tələbəsi*

# Alaskar Özperçin: "Müasir təhsil tələbəni sadəcə dinləyici deyil, öyrənmə prosesinin fəal iştirakçısı kimi görməlidir".

***Türkiyədən dəvət olunmuş müəllim, İstanbul Universiteti-Cərrahpaşanın dosenti Alaskar Özperçin müasir pedaqogika, rəqəmsal təhsil və süni intellektin müəllimlik peşəsinə təsiri barədə fikirlərini bölüşür.***

Müasir dövrdə təhsil sistemi sürətlə dəyişir. Rəqəmsal texnologiyalar, süni intellekt, qlobal kommunikasiya mühiti universitet auditoriyalarına da təsirsiz ötüşmür. Bu dəyişən mühitdə dərs modeli və pedaqoji yanaşmalar necə formalaşmalıdır? Müəllimin rolu necə transformasiya olunur? Tələbə motivasiyası necə artırılmalıdır? Bu suallara Türkiyədən universitetimizə dəvət olunmuş qonaq müəllim Alaskar Özperçin ilə söhbətimizdə aydınlıq gətirməyə çalışdıq.

– Alaskar müəllim, ilk olaraq dərs modeliniz və tədris fəlsəfəniz haqqında danışmağınızı istərdik.

Mən müəllim mərkəzli deyil, tələbə mərkəzli yanaşmanı üstün tuturam. Çünki müasir dövr artıq passiv dinləyici deyil, düşünən, müzakirə aparan və problem həll edən gənclər tələb edir. Bu səbəbdən tələbələrin öyrənmə prosesində aktiv iştirakına xüsusi önəm verirəm.

Dərslərimdə əsasən proyekt təfəkkürlü öyrənmə və aksiyonel (action-oriented) yanaşmadan istifadə edirəm. Tələbələr fərdi deyil, qruplar halında işləyirlər. Bu, həm əməkdaşlığı gücləndirir, həm də auditoriyada kiçik bir akademik icma formalaşdırır. Onlar real həyatda qarşılaşa biləcəkləri problemlər üzərində düşünərək öyrənirlər.

– Tələbə motivasiyası bu gün müəllimlərin ən çox müzakirə etdiyi məsələlərdəndir. Sizcə, motivasiyanın açarı nədir?

Məncə, motivasiyanın əsas şərti dərs məzmununun dövrün tələblərinə uyğun olmasıdır. 60-70 il əvvəl formalaşmış nəzəri çərçivələr bu günün tələbəsini cəlb etmir. Onların həyatında rəqəmsal platformalar, sosial media və süni intellekt mühüm yer tutur. Bu reallığı dərsə inteqrasiya etmək vacibdir.

Tələbələrin gündəlik həyat təcrübəsi ilə əlaqələndirilmiş mövzular dərsi daha maraqlı və mənalı edir. Mövzu real həyatla kəsişdikdə motivasiya təbii şəkildə artır.

– Rəqəmsal texnologiyaların dərs prosesində rolu barədə nə deyə bilərsiniz?

Rəqəmsal savadlılıq artıq seçim deyil, zərurətdir. Bugünkü tələbələr rəqəmsal nəsildir və onların ünsiyyət mühiti məhz bu platformalardır. Buna görə də dərslərdə rəqəmsal alətlərin istifadəsi qaçılmazdır.

Burada yalnız slayd və ya PDF təqdimatlarını nəzərdə tutmuram. Süni intellektlə hazırlanmış videolar, interaktiv vizuallar, onlayn platformalar və müxtəlif tətbiqlər tələbələrin həm texnoloji, həm də akademik bacarıqlarını inkişaf etdirir. Rəqəmsal resurslar dərsi daha canlı və praktik edir.

– Xarici dillərin tədrisi sahəsində hansı məqamları prioritet hesab edirsiniz?

Hazırda "İngilis dili müəllimliyi" ixtisasında dərs deyirəm və tələbələrin motivasiyası, davamiyyəti və məsuliyyəti məni çox sevindirir. Tədris proqramları da müasir tələblərə cavab verir.

Bununla yanaşı, kompüter laboratoriyalarının sayının artırılması tədrisin keyfiyyətini daha da yüksəldə bilər. Rəqəmsal platformaları sadəcə izah etmək deyil, tələbələrlə birlikdə praktik tətbiq etmək daha effektiv nəticə verir. Praktiki məşğələlər həm dil, həm də texniki bacarıqları möhkəmləndirir.



– Texniki imkanların məhdudluğu tədrisin keyfiyyətinə təsir edirmi?

Bu, tədrisi tam geriyə salmır, lakin daha zəngin və interaktiv mühit yaratmaq imkanlarını məhdudlaşdırır. Əgər bu resurslar daha geniş olsa, dərsləri daha praktik və yaradıcı formada təşkil etmək mümkün olar. Tələbə öyrəndiyini dərhal tətbiq etdikdə bilik daha möhkəm mənimsənilir.

– Süni intellektin müəllimləri əvəz edəcəyi ilə bağlı fikirlər tez-tez səsləndirilir. Siz bu barədə nə düşünürsünüz?

Süni intellekt bir çox prosesi asanlaşdıra bilər, lakin müəllimi əvəz edə bilməz. Müəllimlik yalnız məlumat ötürmək deyil. Bu peşə empatiya, emosional zəka, insan münasibətləri və pedaqoji ustalıq tələb edir.

Texnologiya müəllimə dəstək ola bilər, amma müəllimin insani toxunuşunu əvəz etmək mümkün deyil və düşünürəm ki, gələcəkdə də mümkün olmayacaq.

– Universitetimizlə bağlı ilk təəssüratlarınız necədir?

Səmimi desəm, gözlədiyimdən daha müsbət təəssürat aldım. Kampus və infrastruktur kifayət qədər yaxşıdır. Ən çox diqqətimi çəkən isə tələbələrin intizamı və dərsə qarşı yüksək motivasiyası oldu. Bu, müəllim üçün ən böyük stimul və məmnuniyyətdir. Bu qədər məsuliyyətli və maraqlı tələbələrlə qarşılaşmaq mənim üçün çox xoş təcrübədir.

*Lamiyə Abbasova,*
*İnci Mirzəzadə*
*Jurnalistika ixtisası üzrə*
*II kurs tələbələri*

## 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü

# SAQQARSU VƏ YAYCI QƏTLİAMLARI

10 fevral 1828-ci ildə çar Rusiyası ilə Qacarlar dövləti arasında imzalanan bədnam Türkmənçay müqaviləsi ilə Naxçıvan və İrəvan xanlıqları da rus imperiyası tərəfindən işğal olundu. 1850-ci ildə isə Naxçıvan və İrəvan xanlıqları ləğv edilərək Naxçıvan, Gümrü, Yeni Bəyazit, Şərur-Dərələyəz qəzaları və Ordubad nahiyəsinin də daxil olduğu İrəvan quberniyası yaradıldı. Tarixi torpaqlarımızın bölünməsinin və zəbt olunmasının əsası qoyuldu. Osmanlı və Qacarlar dövləti ərazisində yaşayan ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsinə başlanıldı. Beləliklə də, soyqırımı cinayətləri tariximizin qanlı səhifəsinə çevrildi. Yer üzündə hayların (ermənilərin) hiylələrinə məruz qalanlar, onlar tərəfindən törədilən qətliamlara, soyqırımlara məruz qalanlar isə daha çox türk xalqları, xüsusilə biz azərbaycanlılar və Anadolu türkləridir.

Naxçıvada ermənilər tərəfidən törədilən soyqırım ilə bağlı bir çox tədqiqatlar aparılmış, mənbə kimi bir çox müəlliflərin əsərlərinə müraciət olunmuşdur. Bu mənbələr içərisində yazıçı M.S.Ordubadinin “Qanlı illər” və 1918-1920-ci illərdə Naxçıvanda fəaliyyət göstərən Müsəlman Milli Komitəsinin katibi Mirzə Bağır Əliyevin “Qanlı günlərimiz” adlı kədərli xatirələri xüsusi yer tutur. Naxçıvanda ermənilər tərəfindən törədilən qətlimalar işərisində Saqqarsu və Yaycı soyqırımları xüsusi amansızlığı ilə fərqlənir.

Tarixçi alim Elman Cəfərəli də bir sıra tədqiqat əsərlərini bu sahəyə həsr edib. Alim qeyd edir ki, Naxçıvanda faciəli hadisələr yalnız 1905-ci ildə baş verənlərlə yekunlaşmadı. Naxçıvan qəzasının Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa kəndlərini də əhatə edən erməni cinayətləri

1906-cı ildə davam etdi. Erməni vəhşiliyi ilə baş-başa buraxılmış həmin kəndlərin bir çoxunun əhalisi məhv edildi, sağ qalanlar isə digər kəndlərə, habelə Qacarlar dövlətinə sərhəd ərazilərə qaçaraq canlarını qurtarmağa çalışdılar.

Əylisdəki erməni hərbi birləşmələri 1906-cı il avqustun 7-də, mis mədəni ətrafındakı erməni qüvvələri isə avqustun 8-də Panuslu kəndinə gələrək burada qüvvələrini birləşdirdilər və Qxçu-Şəbadək dağlarının ətəyində yerləşən Azərbaycan kəndlərinə hücuma başladılar. Avqustun 9-da başlayan və dörd gün davam edən Oxçu kəndi uğrunda döyüş, ermənilərin hərbi cəhətdən və sayca dəfələrlə çox olmalarına baxmayaraq oxçuluların qələbəsi ilə başa çatdı. Erməniləri təqib edən Oxçu sakinləri onların sığındığı Gicəlan kəndini də azad etdilər. Lakin daşnaklar yenidən ətrafdakı ermənilər yaşayan kəndlərdən daha böyük hərbi qüvvə toplayaraq Zəngəzurun Panuslu, Girdəkan və Gicəlan kəndləri ətrafında əlverişli mövqe tutaraq Oxçu-Şəbadək dağlarındakı strateji yüksəklikləri ələ keçirdilər. Azərbaycanlıların qüvvələri və sursatları tükəndiyindən həmin gecə Oxçu-Şəbadək kəndlərinin imamı Molla Həsən Əfəndinin məsləhəti ilə Ordubadın Saqqarsu adlanan yerinə sığındılar. Kəndlərdə qalan əhalinin hamısı ermənilər tərəfindən qətlə yetirildi. Erməni silahlı birləşmələrinin genişmiqyaslı hücumu Azərbaycan kəndlərinin dağıdılması ilə nəticələndi. Daşnak silahlıları Saqqarsuda gizlənən azərbaycanlıları istisnasız olaraq qırdılar. Bir neçə qadınla əlində ermənilərin qarşısına çıxaraq aman diləyən Molla Həsən Əfəndinin özü və ətrafındakılar da erməni qətliamından qurtula bilmədilər. İslam dininin müqəddəs kitabı vəhşicəsinə təhqir olunndu. Saqqarsu faciəsi baş verən gün daha dörd müsəlman kəndi düşmən tərəfindən dağıdıldı.

Tarixçi-alim qeyd edir ki, türk-müsəlman kəndlərinin sağ qalmış azsaylı əhalisi Ordubada və onun ətraf kəndlərinə pənah apardılar. Zəngəzurdan gələn qaçqınları böyük qayğı ilə qarşılayan ordubadlılar Qapan dərəsində, Saqqarsuda və digər döyüş yerlərində, qalanı isə azərbaycanlı yaralıları və qətlə yetirilənlərin meyitlərini gətirmək üçün dəstələr təşkil etdilər. 1906-cı il avqustun 16-da Saqqarsuda Ordubad könüllüləri Molla Həsən Əfəndinin özü ilə bərabər kənddən çıxardığı 62 qadın və uşağın meyidlərini aşkar etdilər. İki gün sonra ordubadlılar Saqqarsuda yenicə ailə qurmuş bir gənc qadınla cavan oğlanın, Molla Həsən Əfəndinin yandırılmış cəsədlərini, 15 körpənin palaza bükülmüş və bir-birinə qarışmış kəsilmiş başlarını və bədən hissələrini tapdılar. Qapan dərəsindəki Pürdavud kəndi də dağıdılmış, əhalisi isə son nəfərinədək qətlə yetirilmişdi.

Ermənilərin insanlıq adına sığmayan vəhşiliyindən sonra bölgədə son dərəcə acınacaqlı vəziyyət yaranmış, Zəngəzurun Naxçıvanla qonşu kəndlərinin əhalisi əsasən məhv edilmiş, azsaylı sağ qalanlar isə onsuz da vəziyyəti çox gərgin olan Naxçıvana və Ordubada pənah gətirmişdilər.

Ordubadlılar hökumət dairələrinin də erməniləri müdafiə etdiklərini görərək Zəngəzur kəndlərini azad etmək üçün könüllü dəstələr təşkil etmək qərarına gəldilər. 1000 nəfəri qaçqınlardan, 800 nəfəri isə yerlilərdən olmaqla, 1800 nəfərlik ciddi intizama tabe edilmiş könüllü dəstələr Saqqarsuda toplaşaraq 1906-cı il sentyabrın 16-da ermənilərə qarşı həlledici döyüşdə qəti qələbə çalır və bütün Zəngəzur kəndlərini azad edirlər. Vəziyyətin azərbaycanlıların xeyrinə dəyişdiyini görən çar məmurlarının göndərdiyi 500 nəfərlik kazak ordusu yenidən bölgəyə gəlir və guya qaçqınlarm onlar tərəfindən öz kəndlərinə qaytarıldığı görüntüsünü yaradırlar. Girdəkan-Panuslu döyüşü ermənilərin məğlubiyyəti ilə nəticələnir. Lakin ermənilər hücum zamanı, demək olar ki, bütün Zəngəzur kəndlərini tamamilə dağıtmışdılar.

Tarix yenə təkrar olundu, 9 sentyabr 1991-ci il tarixdə saat 19:00 radələrində Ordubad rayonundakı keçmiş N.Tusi adına kolxozun xırdabuynuzlu heyvan sürüsünə Ermənistan Respublikası ilə həmsərhəd ərazidə yerləşən Saqqarsuda - “Qız-gəlin” adlanan yaylaqda erməni silahlı dəstələri tərəfindən silahlı basqın edilmiş, çobanlar – Xəlilov Xəlil Xuduş oğlu və Abbasov Əşrəf Tağı oğlu itkin düşmüş, kolxoza məxsus 724 baş və ayrı-ayrı vətəndaşlara məxsus 307 baş heyvan Ermənistan ərazisinə aparılmışdır. Ordubad rayonunun Ermənistan Respublikası ilə həmsərhəd ərazidə yerləşən “Qapıcıq” adlanan yaylaqda heyvan otaran başqa şəxslər tərəfindən erməni silahlı dəstələrinin çobanları və heyvan sürüsünü Ermənistan ərazisinə tərəf aparılması uzaqdan müşahidə olunduğundan yaylaq sahəsində itkin düşmüş şəxslərin axtarışı aparılmış, Xəlil Xəlilov və Əşrəf Abbasovun üzərində zorakılıq əlamətləri olan meyitləri 1991-ci il sentyabrın 9-da Qafan rayonu ilə həmsərhəd olan dağlıq ərazidə aşkar edilmişdir.

Bəzi tarixçilər qeyd edirlər ki, 1918-1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən, ümumilikdə, 100 mindən nəfərdən çox türk-müsəlman sakin vəhşiliklə qətlə yetirilmişdir. 1918-ci il aprelin 13-də ermənilər Əlincəçay vadisində yerləşən Bənəniyar, Qızılca, Saltaq, Norаşen, Xoşkeşin və s. kəndlərə hücum edərək bu yaşayış məntəqələrini dağıtdılar. Həmin kəndlərin əhalisi qırıldı, sağ qalanları isə müxtəlif ərazilərə səpələndi.

Naxçıvanda ermənilər tərəfindən törədilən qətliamın digəri isə Culfa rayonunun Yaycı kəndindəki soyırımdır. 1918-ci ildə ölkəmizin bir çox bölgələrində olduğu kimi, muxtar respublikanın Culfa rayonunun Yaycı kəndində də cəllad Andronikin erməni quldur dəstələri tərəfindən dəhşətli qətllər törədilmişdir. Ermənilər kəndi dağıdıb, yüzlərlə Yaycı sakinini qətlə yetirmişlər. 1918-ci ildə törədilmiş Yaycı soyqırımı ilə bağlı tarixi həqiqətləri dünyaya çatdıran şəxslər içərisində bu kəndin ziyalısı yazıçı-jurnalist Fərəc Fərəcovu qeyd edə bilərik.

1918-1920-ci illərdə Naxçıvanda fəaliyyət göstərən Müsəlman Milli Komitəsinin katibi Mirzə Bağır Əliyev “Qanlı günlərimiz” adlı gündəliyində qeyd edir ki, 1918-ci iyun ayının 14-də Yayçı hadisəsinə dair sübh vaxtı Naxçıvana xəbər çatdı ki, Andronikin qüvvəsi Araz çayını keçib, Yayçı kəndinə hərəkət edərək həmin kəndin əhalisini qətl-qarət etmiş, Cəmaləddin və Ərəzin kövşəni də erməni qüvvəsi ilə dolubdur. Bu barədə Nehrəm kənd sakini Tağı Nağdəliyev məlumat göndərmişdir.

İkinci məktub yenə ondan alınmışdı. Məktubda qeyd edilir ki, Naxçıvana gəlmiş Osmanlı qoşununun qabağını almaq münasibətilə İrandan ermənilər Araz körpüsünü keçib Yayçı kəndinə hücum edib yarım saat ərzində həmin kəndi tarmar etdilər. Bu məktubdan sonra, saat 8:00 radələrində Milli Komitədə Xəlil bəy cənablarının bu məzmunda teleqrafı alındı: “Naxçıvan Milli Komitəsinin sədrinə. Naxçıvanda bu saat Arazdan qayıdan ermənilərdən başqa 4 min erməni qüvvəsi olduğunu dəxi söylüyorsunuz. Bu 4000 mühacirdir, ya əsgərdir? Kim təxmin etmiş? Culfa geri qayıdıb? Nə qədər vardır. Pək o qədər təşviş etmisiniz. Sizi gözətliyən vardır. Yalan və doğru. məlumat alıb bildirməkə qeyrət ediniz. Xəlil bəy”.

Mənbə bildirir ki, daşnak Andronikin qüvvəsi Culfa tərəfindən şərq tərəfi ilə Naxçıvana tərəf yürüş edirdi. Saat 3 radələrində yenə Xəlil bəydən bu məzmunda alındı: “Arazın körpüsünün atılmağı və Yayçı kəndinin tarmar olmağı bizə məlum oldu. Nehrəm və Cəhri kəndlərinə yazın bəndləri gələn Andronikin qoşunlarının şəhərə girməyinə yol verməsinlər”. İyulun 15-də isə Andronikin dəstəsinin Yayçı əhalisinə endirdiyi zərbələrə tab gətirməyib geri oturdulması xəbəri alındı. İyunun 18-də Andronikin dəstəsinin Yaycıdan Ordubada tərəf hərəkət etməsi xəbəri alınmışdı.

Yazıçı-jurnalst Fərəc Fərəcov qeyd edir ki, Osmanlıya xəyanət edərək oradan qaçmış Andronik Ozanyan 5 min nəfərlik qoşunla (onlardan 4000-i piyada, 1000-i isə süvari dəstə idi) Naxçıvan ərazilərinə daxil olur və ilk qəfil zərbəsini Naxçıvan qəzasının iri yaşayış məntəqələrindən olan Yaycıya vurur. Azğınlaşmış quldur dəstələri bir günün içində kəndi yerlə yeksan edir. Evlər qarət olunub yandırılır, qocalar, qadınlar, uşaq və körpələr qılıncdan keçirilir.

“Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan” kitabında oxuyuruq: “Andronikin tabeliyində olan erməni qüvvələri İrandan Naxçıvana doğru çəkildilər. Bununla da, Culfa, Naxçıvan və Ordubad bölgələrində qara günlər başlandı. Türk ordusundan ağır zərbə alan Andronik Naxçıvanın günahsız əhalisindən öz acığını çıxmaq istəyirdi. Bu məqsədlə Culfaya çəkilən erməni qüvvələri sərhəddə yerləşən Naxçıvan qəzasının böyük kəndlərindən biri olan Yaycı kəndinə hücum etdilər. Heç bir şeydən xəbəri olmayan Yaycı kənd əhalisi Andronikin dəstəsi tərəfindən mühasirəyə alındı. Andranikin qaniçən dəstəsi ilə qonşu erməni kəndinin əhalisi Araz sahilində 4000-ə yaxın qadın, uşaq və yaşlıya hücum edərək çoxunu qətlə yetirdilər. Ölənlər o qədər çox, qalanlar o qədər az idi ki, ölənləri dəfn etməyə adam yox idi”.

Vaxtilə kəndin yaşlı sakinlərinin verdiyi məlumata görə, qəddar düşməndən canını qurtarıb qonşu İran ərazisinə keçmək istəyənlər Araz çayının sahillərinə axışmışlar. Onların arasında, əsasən, Yaycı əhalisi olsa da, Araza yaxın digər kəndlərin də sakinləri var idi. Ümumiyyətlə, hadisələrin canlı şahidləri və öz valideynlərindən ətraflı məlumatlar əldə etmiş yaycılılar söyləyirdilər ki, kəndin, təqribən, 2500 nəfər sakini qətlə yetirilmişdir. Onların da çoxu uşaq, qadın və qocalar idi. Deyilənə görə, hadisə gündüz vaxtı baş verdiyindən əmək qabiliyyətli kişilər çöl işlərində olmuş və ya başqa yerlərə alışverişə getmişdilər. “Min evli” adlandırılan bu kənddə soyqırımı zamanı elə bir ailə olmamışdır ki, faciənin qurbanına çevrilməsin. Hər ailənin bir, iki və daha çox üzvü erməni qaniçənlərindən canlarını qurtara bilməmişlər. Onlarla ailə bütün üzvləri ilə birlikdə evlərində qətlə yetirilmişdir. Həmin vaxt Yaycıda bu cür ürəkağrıdıcı hadisələr az olmamışdır. 1918-ci ilin iyun ayında baş vermiş bu qanlı hadisə erməni faşistləri tərəfindən törədilən soyqırımı idi. Kəndin əhalisi yarıbayarı azalmışdı. Ən çox itkilər qadınlar arasında olmuşdu. İtkin düşənlər də vardı. Danışırlar ki, kənddə 7 il xeyir mərasimləri, şənliklər olmamışdır. Qısa bir vaxtda Naxçıvanı ələ keçirmək niyyətində olan Andranik və onun azğınlaşmış dəstələri Yaycı soyqırımından sonra Ərəzin, Camaldın, Sirab və digər kəndlərdə də qanlı qırğınlar törətmişlər. 2007-ci ildə yaycılıların arzu və istəyi gerçəkləşdirildi. Kənddə soyqırımı qurbanlarının xatirəsinə bir abidə inşa olundu, ətrafında park salındı, tikinti-abadlıq işləri görüldü. İndi bura kənd sakinlərinin, xüsusilə də gənclərin müqəddəs and yerinə çevrilib.

Həmin dövrdə erməni qulduru Andronik bolşeviklərlə işbirliyi yaradaraq Naxçıvanı, Zəngəzuru ələ keçirmək üçün əməliyyatlara başlamışdı. Bakıdakı bolşevik hökumətinin başçısı S.Şaumyandan dəstək alan Andronik Şərur - Dərələyəz və Naxçıvan qəzalarında qanlı qırğınlar törətmişdi. Bölgəni kütləvi qırğından yalnız Türkiyə xilas edə bildi. 1918-ci il iyunun əvvəllərində 9-cu və 11-ci Türk diviziyaları Uluxanlıdan Naxçıvana hərəkət etdi. 1918-ci ilin iyun ayının 4-də xilaskar türk qoşunu Naxçıvana daxil oldu. Şəhər əhalisi türk qoşununu toy-bayramla qarşıladı, şəhərdə Türkiyə bayrağı qaldırıldı. Naxçıvan üzərində Türkiyə himayəsi bərqərar oldu. Türk qoşunları və Naxçıvanın yerli müdafiə qüvvələri daşnak quldur dəstələrini darmadağın edib bölgədən qovdular. Naxçıvanın kəndlərini viran qoymuş Andronik buradakı məğlubiyyətdən sonra Zəngəzura doğru hərəkət etdi. Nehrəm ətrafında rüsvaycasına məğlub edilmiş Andronikin dəstələri geri qaçmağa məcbur olmuşdu. Ordubada doğru irəliləyən Andranik qarşısına çıxan kəndləri dağıda-dağıda bu məsafədə 2 min azərbaycanlını öldürmüşdür. Ordubadın ətrafı, Əlincəçay boyu, Şahbuz kəndlərinin əhalisi tərksilah olunmuş, xeyli hissəsi qətlə yetirilmişdir. Həmçinin Sirab, Nursu, Kolanı, Hənzər, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Xanağa, Bənəniyar, Camaldın, Ərəzin, Kırna və Xoşkeşin kəndlərində də dəhşətli qırğınlar törədilmişdir. Ermənilər tərəfindən 1906-cı ilin avqustunda Ordubad rayonunun Saqqarsu yaylağında və Culfa rayonunun Yaycı kəndində 1918-ci ildə törədilmiş qətliamlar Azərbaycan xalqına qarşı törədilmiş soyqırım cinayətlərinin tərkib hissəsidir.

Bəli, oxumasaq bilmərik. Bilməsək unudarıq. Unutsaq yenidən yaşamalı olarıq. İnanırıq ki, xalqımıza qarşı bu qətliamları törədənlər tariximizin yaddaşından heç zaman silinməyəcək, ilahi ədalət tarixdə hər şeyi öz yerinə qoyacaq. Bu, mütləq baş verəcək!

*Faiq Səfərov*
*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi*

# Zəngəzur dəhlizi və Naxçıvan iqtisadiyyatında yeni inkişaf mərhələsi

Zəngəzur dəhlizi Cənubi Qafqaz regionunda yeni geoiqtisadi mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Bu layihə yalnız nəqliyyat xətti deyil, həm də Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa quru əlaqəsinin bərpası baxımından strateji əhəmiyyət daşıyır. Uzun illər blokada şəraitində inkişaf edən Naxçıvan üçün bu dəhliz iqtisadi reinteqrasiyanın əsas mexanizminə çevrilə bilər. Əslində məsələ təkcə yolun açılmasında deyil. Söhbət Naxçıvanın uzun müddət məhdud kommunikasiya şəraitində formalaşmış iqtisadi modelinin dəyişməsindən gedir. İllərlə alternativ və daha bahalı marşrutlardan istifadə edən sahibkarlar üçün birbaşa quru əlaqəsi böyük rahatlıq deməkdir. Bu, həm vaxt itkisini azaldacaq, həm də məhsulların maya dəyərinə müsbət təsir göstərəcək. Yəni istehsalçı daha az xərclə daha geniş bazara çıxış imkanı qazanacaq. Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməklə yanaşı, ölkəni Türkiyə və Avropa bazarlarına daha qısa və səmərəli marşrutla çıxarır. Bu isə daşınma xərclərinin azalmasına, logistika müddətinin qısalmasına və regionun tranzit potensialının artmasına səbəb olacaq. Məsələn, əvvəllər günlərlə çəkən daşınma prosesi daha operativ və planlı şəkildə həyata keçirilə bilər. Bu da biznes üçün ən vacib amillərdən biri olan sabitlik və proqnozlaşdırıla bilənlik yaradır. Digər tərəfdən, dəhliz Naxçıvanı sadəcə bir "kənar bölgə" statusundan çıxarıb onu regional ticarət axınlarının üzərində yerləşən aktiv iqtisadi məkana çevirə bilər. Tranzit yüklərin keçidi, logistika mərkəzlərinin qurulması, anbar və gömrük xidmətlərinin genişlənməsi yeni iqtisadi dinamika yaradacaq. Bu dinamika isə öz növbəsində xidmət sektorunu, kiçik və orta sahibkarlığı da hərəkətə gətirəcək.




İqtisadi baxımdan dəhliz bir neçə istiqamətdə təsir göstərəcək:

*Birincisi, sənaye və istehsal sektorunun genişlənməsi.* Naxçıvanda yeni sənaye zonalarının yaradılması, ixracyönümlü müəssisələrin təşviqi və xarici investisiyaların cəlbi mümkün olacaq.

*İkincisi, ticarət dövriyyəsinin artması.* Quru əlaqəsinin açılması yerli məhsulların daxili bazara çıxışını asanlaşdıracaq və ixrac imkanlarını genişləndirəcək.

*Üçüncüsü, məşğulluq səviyyəsinin yüksəlməsi.* Logistika, gömrük, nəqliyyat və xidmət sektorlarında yeni iş yerləri yaranacaq.

*Dördüncüsü, turizm sektorunun inkişafı.* Nəqliyyat əlçatanlığının artması Naxçıvana turist axınını gücləndirə bilər.

Geosiyasi baxımdan isə Zəngəzur dəhlizi Azərbaycanın Orta Dəhliz strategiyasını gücləndirir və ölkəni Avrasiya nəqliyyat şəbəkəsində mühüm halqaya çevirir. Bu kontekstdə Naxçıvan regionun iqtisadi xəritəsində passiv kənar bölgədən aktiv tranzit platformaya transformasiya edə bilər.

Nəticə etibarilə, Zəngəzur dəhlizi Naxçıvan üçün sadəcə yol layihəsi deyil, yeni inkişaf mərhələsinin başlanğıcıdır. Bu mərhələ regional inteqrasiya, iqtisadi şaxələndirmə və dayanıqlı artım imkanlarını özündə birləşdirir. Dəhlizin reallaşması ilə Naxçıvanın iqtisadi modeli daha açıq, rəqabətqabiliyyətli və beynəlxalq bazarlara inteqrasiya olunmuş formaya keçə bilər.

*Muxtar Məmmədov*
*Beynəlxalq ticarət və logistika ixtisası üzrə IV kurs tələbəsi*

# Xalq və elmi etimologiyada "Ağrı" toponimi

Adında milli kimliyini ehtiva edən qədim Azərbaycan toponimlərindən biri də Ağrıdır. Adın etimologiyası həm şifahi qaynaqlarda, həm də elmi mənbələrdə araşdırılmışdır. Bəzi tədqiqatçılar toponimin ərazidə baş vermiş konkret bir hadisədən əsas götürərək xalq arasında yayılan əfsanə və rəvayətlərlə əlaqədar olaraq adlandırıldığını qeyd edirlər. Həmin əfsanələrdən biri belədir:

Əfsanəyə görə, Ağrı və Qarnıyarıq dağları əvvəllər iki qardaş idi. Ağrı dağı böyük, Qarnıyarıq dağı isə kiçik qardaş idi. Qoçaq, mərifətli, olduqca istiqanlı olan kiçik qardaş böyük qardaşı çox istəyirmiş, onun yolunda ölümə getməyə hazırmış. Böyük qardaş isə həmişə kiçiyə soyuq münasibət bəsləyirmiş. Bir gün kiçik qardaş gözəl bir qıza vurulur. Qız da onu sevir. Kiçik qardaş adətən böyükdən məsləhət almamış bir iş görməzmiş. Bu dəfə də belə edir. Ancaq böyük qardaş kiçiyin sevgilisini görən kimi ona vurulur, açıb-ağarda bilmir. Arzusuna çatmaq üçün yollar axtarır. Hamı kiçik qardaşın xətrini istədiyi halda, böyük qardaş düşmənli idi. Günlərin birində qardaşlar eşidirlər ki, düşmən qonşu kənddə gizlənib, böyük qardaşı öldürmək üçün məqam axtarır. Kiçik qardaş böyüyün yalançı etirazına baxmayaraq, düşmən qabağına özü çıxır. Kiçik qardaşı düşmən qabağına yola salan kimi böyük qardaş onun sevgilisini götürüb qaçır. Kiçik qardaş düşmənlə döyüşdə qalib gəlir, qardaşının intiqamını alır. Sevinə-sevinə özünü kəndə çatdırır. Çox gözləyir, çox axtarır, nə qardaşını, nə də sevgilisini tapa bilir. Axırda camaat dözməyib bu ağır xəbəri kiçik qardaşa deyirlər. Bu qara xəbər onu sarsıdır. İllərlə sinəsində bəslədiyi sevgi, məhəbbət ürəyinə sığmır, qeyzindən dərya kimi çalxalanıb tüğyana gəlir. Kiçik qardaşın sinəsi yarılır və dağa çevrilir. Dağın orta hissəsi yarıq olduğundan bu dağa Qarnıyarıq adı verilir. O gündən hamı Qarnıyarıq dağını ziyarətə gəlir. Bu xəbər böyük qardaşa çatır. Kiçik qardaşın ölümündən sonra dünya onlar dar görünür. Onun ürəyində dəhşətli ağrılar baş qaldırır. O da dağa çevrilir. Böyük qardaşın ürəyi ağrıdığı üçün bu dağa da Ağrı dağı adı verilir. Böyük qardaş kiçik qardaşa soyuq münasibət bəslədiyindən Ağrı dağının başında bütün fəsillərdə qar olur. Bu əfsanədə Ağrı dağının xalq etimologiyası ilə izahı verilmişdir. Muxtar respublika ərazisi toponimlərinə nəzər yetirsək görərik ki, "Ağrı" yalnız dağ adı deyil, bu adda kənd adı da mövcuddur. Təbii ki kənd adını bu əfsanələrə əsaslanaraq etimologiyasını izah etmək yalnış olar. Toponimin elmi etimologiyasına nəzər yetirək.

**Ağrı (mənbədə Aqri)** - XIX əsrə aid olan rus dilli elmi mənbədə Ordubad dairəsinin Dəstə mahalında , XX əsrdə isə Naxçıvan qəzasına aid kənd olmuşdur. Mənbədə Aqri şəklində qeyd olunub. Hazırda Ordubad rayonunda kənddir. Qeyd edək ki, Ağrı həm də Ordubad rayonunun Yuxarı Əylis kəndi ərazisində dağların adıdır. F.Qan məqaləsində yazır ki, toponim tatar mənşəli *aqriəyri* sözü əsasında yaranıb. Bu fikrin doğruluğuna şübhə ilə yanaşırıq. Ehtimal ki, müəllif sözü rus dilində tələffüz formasını əsas götürərək bu qənaətə gəlmişdir.

İ.Babaşoğlu, Gürer Gülsev, S.Babayev, A.Rəhimov, A.Qasımov və b. tədqiqatçılar bu toponimi *arqu* türk tayfa adı ilə bağlı izah edirlər. Y.Yusifov isə türk dillərində *eqir-ekiz* sözünün işləndiyini və toponimin bu məna əsasında yarandığını yazır. Digər tərəfdən, türk dillərində *ağrı* "hündür, yüksək" mənasında işlənir və ehtimala görə, Ağrı kəndinin adı Türkiyənin şərqində yerləşən Ağrıdağ silsiləsindən alınmışdır. Qeyd edək ki, arqu M.Kaşğarinin lüğətində iki mənada işlənmişdir: *arqu* – türk boyu və "iki dağ arası, uçurum", "yarğan, dərə". Fikrimizcə, Ağrı toponimi türk tayfa adı əsasında yaranmışdır.

*Bəs "Ararat vadisi" anlayışı haradan yaranmışdır?*




Ermənilər Türkiyə ərazisində və Kiçik Qafqazda ən hündür dağı, Araz çayından sağda yerləşən möhtəşəm Ağrı dağının (5165 m) ənənəvi olaraq Ararat adlandırırlar. O cümlədən ermənilərin sayəsində bütün Avropa və xristian aləmi bu Ağrı dağını Ararat, İrəvan düzənliyini isə Ararat vadisi adlandırırlar. Elmi-tədqiqatlar isə bu dağın tarixən Ararat adlandırılmadığını, yalnız son bir neçə yüz ildə kilsə din xadimlərinin sayəsində avropalıların (daha çox Rusiya vasitəsi ilə) bu məşhur dağı belə adlandırdıqlarını sübut etmişdir. Belə ki, Bibliyada adı çəkilən Ararat dağının (əslində dağ silsiləsinin) indi Ararat (Ağrı dağı) adlandırılan dağ olması barədə yazılı mənbələrdə, o cümlədən qədim erməni müəlliflərinin yazılarında heç bir məlumat yoxdur. Ermənidilli yazılı tarixi mənbələrdə bu dağın adı "Masis" kimi göstərilmişdir. Bu söz isə öz növbəsində İran mənşəli olub, orta fars dilində "böyük", "ən böyük" (burada, yəni ən böyük dağ) mənasını ifadə etmişdir. Qədim erməni ədəbiyyatının heç bir nümunəsində, Bibliyanın erməni dilinə tərcümələrində Masis dağı "Nuh tufanı" ilə əlaqələndirilməmiş və bu dağ Bibliyada göstərilən Ararat dağları ilə eyniləşdirilməmişdir. Bu faktlardan göründüyü kimi, "Ararat" sözünün erməni tarixinə və mədəniyyətinə aidiyyatı yoxdur. Bu söz Assuriya mənşəli olub, Urartu adının fərqli səslənməsindən ibarətdir. Hələ Səlcuqlular dövründən (ola bilsin daha qədimdən) Ağrı dağı adlandırılan bu dağ tarixən Ararat, İrəvan düzənliyi isə Ararat vadisi adlanmayıb. Hazırda elmi ədəbiyyatda bu terminə rast gəlinməsi də ermənilərin tarixi ilə bağlantısı yoxdur. Deməli, Bibliyada "ümumdünya daşqını" haqqında əfsanə ilə əlaqədar adı çəkilən Ararat dağları indi ermənilərin Ararat adlandırdıqları, Türkiyənin şimali-şərqində yerləşən Ağrı dağı deyildir. Bütün bu tarixi-elmi faktlara baxmayaraq, qonşu xalqların dillərindən, mədəniyyətlərindən bir çox şeyləri mənimsəyən ermənilər Ağrı dağını Ararat, İrəvan düzənliyini isə Ararat vadisi adlandırmaqda davam edirlər. Sonda onu da qeyd etmək lazımdır ki, toponimin etimologiyası təsdiq edir ki, bu ad türk mənşəlidir və türklərə məxsusdur.

*Cəmilə Məhərrəmova*
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı*

# Ən böyük mükafatım azad nəfəs alan Sədərəkdir...

1940-cı ilin sazaqlı yanvar ayı... Naxçıvanın qapısı, dağların qeyrət qalası olan Sədərəyin o vüqarlı qoynunda açdım gözlərimi. Mən həmin dağların qızı, qəhrəman ana Ceyran Məmmədovayam. Bəli, təvəllüdüm ötən əsrin ortalarına dayansa da, mənim əsl ömrüm doğma torpağı 1992-ci ilin o qanlı-qadalı günlərindən, canım bahasına qoruduğum anlardan başlayır. Doğma yurdumuz, sığınacağımız olan Sədərək 1990-1993-cü illərdə düşmən atəşinin ağuşunda idi. Güllə səsləri qulağımızda uğuldayanda, bəlkə əlimizdə hər zaman silah yox idi, amma dilimizdə dua, ürəyimizdə sarsılmaz bir Vətən sevgisi var idi. Biz qorxunu elə o günlərdə öldürmüşdük. Mən bir ana idim. Amma mənim analığım təkcə ocağımın başında bitmirdi. Mənim analığım Sədərəyin hər daşında, hər cığırında, hər səngərində idi. Dünyam isə 11 övladımdan ibarət idi. Onlara hər gün çörəkdən əvvəl Vətən sevgisini daddırırdım. Boya-başa çatana qədər hər birinin qulağına tək bir nəsihət pıçıldamışdım: "Balam, bu dağlar bizim evimizdir, biz isə onun sarsılmaz qalxanı. Bu torpağın hər qarışı sizin namusunuzdur. Nə olursa olsun, Vətəni qoruyun! "1992-ci ilin o ağır, sınaq dolu günləri gələndə şahid oldum ki, balalarım nəsihətimi öz canlarına necə hopdurublar. Yeddi oğlumun yeddisi də təhlükəli döyüşlərin mərkəzində düşmənə sinə gərirdi. Qızlarımla birlikdə isə gah əlimdə isti yemək qazanları postlara qaçır, gah da yaralılarımızın yarasını sarıyaraq dualarımla onlara sipər olurduq. O vaxt çoxu məcbur qalıb evini-eşiyini, yurdunu qoyub getsə də, mən bir addım belə geri çəkilmədim. Mən qaçmağı deyil, onlara dayaq olmağı seçdim. Axı yeddi oğlumun canı bu torpağa, bu daşlara əmanət ikən, mən hansı canımı götürüb qaçaydım? Mənim üçün artıq öz canım yox, səngərdəki balalarımın nəfəsi, Sədərəyin namusu var idi. Mən orada qalmaqla həm ana, həm də bir əsgər kimi öz andımı içmişdim...Və 1992-ci ilin 18 mayı. Səhərin o erkən saatlarında Sədərək yenə od içində idi. Saat düz doqquzu göstərəndə həmin son an gəlib çatdı... Maşınımızı hədəf aldılar. Ətrafımda yaralılar, həmin canların ümidləri var idi. Mənim bu dünyadakı ömür payım isə məhz o saniyələrdə Sədərəyin vüqarlı dağlarına, doğma torpağına qovuşdu.1940-cı ilin soyuq yanvarında başlayan bu yolum 1992-ci ilin may səhərində müqəddəs bir şəhidlik zirvəsinə çevrildi. Əslində mən ölmədim, o gün yenidən doğuldum — bir şəhid, sönməz bir məşəl kimi... İndi bəlkə cismim aranızda yoxdur, amma ruhum hələ də o səngərlərdə, o postlardadır. Bilirəm, indi də övladlarımın, nəvələrimin gözü o dağlardadır. Mən indi Sədərəyin üstündə dolanan buludda, qayalarından əsən o sərt küləkdə, oğullarımın sönməz Vətən eşqindəyəm. Mən bir ana kimi borcumu yerinə yetirdim. Vətəni balalarıma, balalarımı isə bu müqəddəs Vətənə əmanət etdim. İndi baxın o uca zirvələrə... Biz bir qarış torpağımızı da vermədik. Adım qəhrəmanlıq dastanlarına yazılsa da, ən böyük mükafatım azad nəfəs alan Sədərəkdir. Mənim üçün ən böyük bayram elə budur!




*Səmayə Rəsulova*
*Jurnalistika ixtisası üzrə*
*IV kurs tələbəsi*

# Auditoriyadan həyata: universitet nə qazandırır?

Təhsil pilləsinin yadda qalan mərhələsi sinif otaqlarından başlayan və tələbələrin yaddaşına “auditoriya” adı ilə həkk olunan o məkandır. Bəs bu qapalı divarlar həyatımızda hansı yeniliklərin timsalına çevrilib? Ağıllarda gəzən o sual – “nə qazanmışıq?”. İlk növbədə universiteti yalnız elm öyrənilən bir məkan hesab etmək doğru olmazdı. O, insanın formalaşdığı, dünyagörüşünün genişləndiyi, özünü və cəmiyyəti dərk etməyə başladığı bir mərhələdir. Auditoriyada qazandığımız biliklər isə həyatın müxtəlif sahələrində tətbiq olunan real bacarıqlara çevrilir.



Bu baxımdan, xüsusilə Naxçıvan Dövlət Universiteti kimi ali təhsil ocaqları regionda elmin, mədəniyyətin və innovativ düşüncənin inkişafına mühüm töhfə verərək tələbələrin hərtərəfli formalaşmasına geniş imkanlar yaradır. Mən özüm də NDU tələbəsi olaraq bu mühitin bir parçası olmaqdan qürur duyur və burada qazandığım bilik və təcrübənin həyatımda mühüm rol oynadığını hiss edirəm. Seçilmiş sahələr üzrə qazanılan elmi və praktik biliklər, həyatın irəliləyən zamanlarında artıq karyeranızın ilkin addımları haqqında təəssürat yaratmağa və həmin sahə üzrə inkişafa şərait yaratmaq üçün vasitədir. Sadəcə təhsilini bitirmək və “diplom” almaq üçün bu biliklərə yiyələnmək özünüinkişaf üçün zəif kontent olardı.

Universitet sadəcə fərqlənmək və təhsil almaq üçün yox, özünüinkişafın təməlini atmaq üçün mühüm vasitəçidir. Bu mənada Naxçıvanda fəaliyyət göstərən ali təhsil müəssisələri də tələbələrin yalnız akademik deyil, eyni zamanda mənəvi və sosial inkişafını prioritet istiqamət kimi müəyyənləşdirir. Bununla yanaşı, auditoriyalar tənqidi düşünmə və analiz bacarığını yaradır. İstənilən mövzu ilə bağlı müzakirələr vasitəsilə artıq beynində fikirlərin yaranması gələcəkdə öz fikirlərinin olmasına vasitədir. İnsan artıq informasiyanı olduğu kimi qəbul etmir, onu təhlil edir və nəticə çıxarır. Bu proses isə güclü elmi mühitə malik ali məktəblərdə daha da dərinləşir və tələbəni müstəqil düşünən şəxsiyyətə çevirir. Sosial həyatımızda aktivlik məhz tələbəlik illərində daha çox olur. Bu cəhət həm danışmağı, həm dinləməyi inkişaf etdirən mühüm amildir. Bundan əlavə, universitet insanın məsuliyyət hissini və özünüidarə bacarığını gücləndirir. Dərs cədvəlini planlaşdırmaq, imtahanlara hazırlaşmaq, layihələri vaxtında təhvil vermək tələbəni nizam-intizama alışdırır. Bu isə gələcək həyatın daha planlı və sistemli qurulmasına şərait yaradır. Xüsusilə Naxçıvanın zəngin elmi-mədəni mühiti və dövlət qayğısı ali təhsilin keyfiyyətinə müsbət təsir göstərərək tələbələrin potensialının üzə çıxmasına dəstək olur.

Nəticə olaraq, universitet həyatı gələcək üçün bir hazırlıq mərhələsi olmaqla yanaşı, həm də insanın şəxsiyyət kimi formalaşdığı ən önəmli dövrlərdən biridir. Auditoriyadan başlayan o cığır, əslində, həyatın geniş magistralına aparan ən dəyərli və unudulmaz yoldur. Bu yolun Naxçıvan kimi elmə və təhsilə dəyər verən bir mühitdə keçilməsi isə həmin mərhələni daha mənalı və yadda qalan edir.

*Günel Məmmədova*
*Jurnalistika ixtisası üzrə*
*II kurs tələbəsi*

# Azadlığın sərhəddi

Başqalarının yardımı ilə onların istədikləri həyata uyğun yaşamaq həyatın ən böyük rahatlığıdırmı? Yoxsa heç kimdən yardım almadan, hər gün ölümlə addımlayıb mübarizə apararaq yaşamaq rahatlıqdır…

Xoruz öz hinindən çölə baxırdı. Hava pis olduğu üçün sahibi onu həyətə buraxmamışdı. Başını sallayıb dənini yeyirdi. Anidən bir səs eşitdi:




- Yenə sən və dustaqlığın...

Xoruz başını qaldıranda qartalın hinin beş metr aralığında, bir dirəyin üstündə dayandığını gördü.

- Özünə iş tapmırsan? Yenə gəlib mənimlə əlləşirsən?

Qartal onu süzərək dedi:

- Mənim işim çoxdur. Hər gün də dəyişir. Səndə isə dəyişən heç nə yoxdur. Hər gün eyni şeyi etməkdən bezmirsən?

Xoruz dərin bir ah çəkdi:

- Sən hələ də başa düşmürsən. Sən və mən fərqli canlılarıq. Sənin azadlıq bildiyin şey mənə yaddır, mənim azadlıq bildiyim isə sənə.

Qartal buradan hər dəfə keçdikdə onunla belə söhbətlər edirdi. O, xoruzun da özü kimi azad yaşamalı olduğunu düşünürdü. Amma bəzən öz-özünə sual da verirdi.

Bəs, mənim yaşadığım həyatı həqiqətən azad adlandırmaq olarmı?

- Bir ətrafına bax, - deyə qartal təkrarladı.

- Sənin kimi nə qədər xoruz, toyuq sonda insanlara yemək olub. Ölümü hər an düşünərək yaşamaq sizə heç təsir etmir?

Xoruz bu sözləri hər gün eşidirdi. Amma verdiyi cavab isə hər zamankı kimi eyni idi.

- Mənim və sənin azadlıq düşüncəmiz fərqlidir. Olduğumuz yerə görə ya azad, ya da məhkum yaşaya bilərik. Mənim yaradılışımın azadlığı məhz budur.

Qartal hər gün ona qaçmağı təklif edirdi, lakin xoruz bunu həmişə rədd edirdi.

- Bilirəm dediklərim sənə ziddir, - dedi qartal.

- Bəlkə bir daha görüşməyəcəyik. Amma dediklərimi unutma. Həqiqi azadlıq apardığın mübarizənin nəticəsidir. Mən həyatla mübarizə aparıram və buna görə də azadam. İstədiyim vaxt arzuladığım yerə uça bilirəm, istədiyimi edə bilirəm. Ölüm isə daim mənimlədir. Səninlə mənim bir fərqim də var ki, necə öləcəyimi bilmirəm. Sənin ölümün isə özünə də, hər kəsə də bəllidir.

Xoruz sakit səslə soruşdu:

- İstədiyin yerə gedə bilməyi azadlıq hesab edirsən?

- Mənə görə elədir. Təbii şərtlərlə ölüm başqasının tamahı naminə ölməkdən yaxşıdır.

- Səni də ovlaya bilərlər.

- Bax yenə fərqimiz ortaya çıxır. Mən bu ehtimalı düşünmədən, qorxusuzca yaşayıram. Lakin sən insanoğlunun səni nə zaman kəsəcəyini düşünərək yaşayırsan...

Xoruz soyuq baxışla cavab verdi:

- Talehi dəyişdirə bilməzsən. Bizim taleyimiz, azadlığımız, mühitimiz fərqlidir. Əgər buradan qaçsaydım, yerdə başqa heyvanlar məni ovlayacaqdı. Çünki uça bilmirəm. Sənin dediyin azadlıq mənim ölümüm olardı.

Xoruz başını aşağı salıb yenə dənini yeməyə başladı. Uzaqdan insanların səsi gəlirdi. İki nəfər əlində bıçaqla hinə yaxınlaşdı. Xoruzu tutdular. O, taleyinin bura qədər olduğunu bilirdi. Müqavimət göstərmədi. Son dəfə qartala baxdı.

Qartal yenə dedi:

- Səni xilas edə bilərəm! Bu, son deyil!

Xoruz sakit baxdı.

- Sən azadlığı mübarizədə tapdın. Mən isə taleyimi qəbul etməkdə görürəm. Bəlkə də azadlıq seçə bilmədiyin şeyi qəbul edə bilməyindədir.

Bıçaq parladı.

Qartal göyə qalxdı. Amma bu dəfə uçuşu əvvəlki kimi deyildi. Göy üzündə süzərək düşündü:

“Mən həqiqətən azadam? Yoxsa sadəcə daha böyük bir “hin”in içərisindəyəm?”

O ilk dəfə idi ki, öz azadlığından şübhə edirdi.

Mavi səmada qıy vuran qartal sonsuzluğun da sərhədi ola bildiyinin fərqinə vardı.

*Onur Cəbrayılov*
*Jurnalistika ixtisası üzrə*
*I kurs tələbəsi*

# Müharibənin görünməyən üzü

Müharibə bitə bilər, amma onun səsi insanın qulağında, qorxusu ürəyində, izi isə yaddaşında qalır. Bir şəhər yenidən tikiləndə belə o şəhərin içində yaşayan insanların itirdiyi illər geri qayıtmır. Divarlar düzəlir, yollar bərpa olunur, amma insanın içində qalan boşluq heç vaxt tam dolmur.

Hər qapı arxasında bir hekayə, hər dağıntının altında bir xatirə yatır. Və ən ağır sual həmişə eyni qalır: "Əgər müharibə olmasaydı, həyat indi necə olardı?". Müharibə sadəcə silah səslərinin eşidildiyi, torpaqların dəyişdiyi və xəbərlərin başlıqlara çevrildiyi bir hadisə deyil. Müharibə – bir anın içində həyatın istiqamətinin dəyişməsi, sabahın qeyri-müəyyənliyə çevrilməsi və insanların ən təhlükəsiz sandığı yerlərdən ayrılmaq məcburiyyətində qalmasıdır. O yalnız şəhərləri deyil, insanların iç dünyasını da dağıdır.

Bir vaxtlar uşaqların həyətlərdə sərbəst qaçdığı, anaların



pəncərə önündə övladlarını gözlədiyi, ataların evə gələndə qapının arxasında sevinclə qarşılandığı günlər olurdu. Amma müharibə başlayanda o sadə və sakit həyat birdən-birə yoxa çıxır. Küçələr boşalır, evlər səssizliyə qərq olur, divarlarda güllə izləri gələcək nəsillərə keçən ağrının şahidi kimi qalır.

Ən ağır yük isə insanın ürəyində qalır. Torpağından ayrılan insan üçün vətən təkcə bir coğrafiya deyil – o, uşaqlıq xatirələridir, tanış küçələrdir, ata evinin qoxusudur, qonşuların səsidir. İnsan məcburiyyət qarşısında bunları geridə qoyanda fiziki olaraq uzaqlaşsa da, ruhu həmin yerlərdə qalır. Hər addımında bir boşluq, hər gecəsində bir həsrət yaşayır.

Müharibə itkilərlə yadda qalır. Həyatını itirənlər bir tərəfdə, həyatının ən gözəl illərini itirənlər digər tərəfdə dayanır. Yarımçıq qalan arzular, deyilməmiş sözlər, yazılmamış məktublar və qucaqlanmamış yaxınlar… Bu ağrılar heç bir statistik rəqəmə sığmır. Onlar səssizdir, amma çox dərindir.

Uşaqlar müharibənin ən həssas qurbanlarıdır. Onlar qorxunun nə olduğunu böyüklərdən əvvəl öyrənirlər. Partlayış səsini oyuncaq səsi ilə qarışdıran, sığınacaqlarda yuxuya gedən, gələcəyini hələ anlamadan itki ilə tanış olan uşaqlar… Onların gözlərindəki qorxu illər keçsə də silinmir, amma ümidlə birlikdə böyüyür.

Bütün bu çətinliklərə baxmayaraq, insanın içində bir güc yaşayır – yaşamaq və yenidən başlamaq gücü. Dağıntılar arasında çiçək açan ümid kimi insanlar da yenidən ayağa qalxmağa çalışır. Şəhərlər yenidən qurulur, yollar bərpa olunur, həyat tədricən axarına qayıdır. Amma o dövrün izləri yaddaşlarda, ailə hekayələrində və yazılan məqalələrdə əbədi qalır.

Müharibə tarixdə bir səhifə ola bilər, lakin o səhifəni yaşayan insanlar üçün bir ömürdür. Ona görə də ən böyük arzu budur: heç bir nəsil müharibənin o ağır yükünü yenidən daşımasın, heç bir uşaq qorxu ilə böyüməsin və heç bir ailə ayrılığın ağrısını yaşamadan sabaha ümidlə baxa bilsin.

*Gülbəniz Rüstəmqızı*
*Jurnalistika ixtisası üzrə*
*I kurs tələbəsi*

# Tariximizin sarsılmaz zərif sütunları

Azərbaycan tarixinin hər səhifəsində qılıncının kəsəri, ağlının nuru və iradəsinin sarsılmazlığı ilə dastan yazan qadınlarımızın izi var. Bu torpaq qəhrəman oğullarla yanaşı, həm də dünyaya dərs verən, şahları diz çökdürən, elçiləri heyran qoyan qüdrətli analar yetişdirib.

Azərbaycan torpağı əsrlərdir ki, həm qılınc oynadan ərənlərin, həm də zəkası ilə dünyanı heyran qoyan, iradəsi ilə imperiyaları sarsıdan qüdrətli qadınların məskənidir. Bizim tariximiz ana vətən anlayışının sadəcə bir ifadə olmadığını, qadınlarımızın bu vətənin həm ruhu, həm də qalxanı olduğunu sübut edən dastanlarla doludur.

Bu şanlı tarixin səhifələrini vərəqlədikcə qarşımızda məğrur bir mənzərə canlanır. Masagetlərin hökmdarı, ana fədakarlığını vətən sevgisi ilə birləşdirən Tomris tarixin ən böyük



fatehlərindən biri olan Kirə qarşı çıxarkən həm öz xalqını, həm də qadın ləyaqətini qoruyurdu. Onun "həyatında qan içməyə doymamışdın, indi səni qanla doyururam!" kəlməsi əsrlər keçsə də, qəddarların qəlbinə qorxu salan bir ədalət harayı kimi səslənir. Tomrisin timsalında biz qadın ürəyinin həm necə mərhəmətli, həm də düşmən qarşısında necə sarsılmaz bir qayaya çevrildiyini görürük.

Zaman keçir, tarixin çarxı fırlandıqca Azərbaycan qadınının zəkası bu dəfə Bərdə saraylarında, Nüşabənin timsalında parlayır. Makedoniyalı



İskəndər kimi dünyanı diz çökdürən bir sərkərdəni döyüş yerinə, dərin hikməti və uzaqgörənliyi ilə heyran qoyan Nüşabə qadın ağlının fiziki gücdən qat-qat üstün olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi. İskəndərin qarşısına yemək əvəzinə ləl-cəvahirat qoyan o ulu xanım, insanın gözütoxluğunun və ağlının ən böyük sərvət olduğunu sübut edərək bir ölkəni qan tökülmədən xilas etməyin yolunu bizə göstərmiş oldu.

Bu zəncirin ən parlaq halqalarından biri də Şərqin ilk qadın diplomatı, Ağqoyunlu dövlətinin sütunu olan Sara xatundur. O, çətin siyasi gedişlərdə düyünləri açan,



Fateh Sultan Mehmet kimi bir sultanla bərabər səviyyədə danışıqlar aparan bir zəka sahibi idi. Sara xatun sübut etdi ki, Azərbaycan qadını diplomatik masada dövlətin maraqlarını canından əziz tutmağı bacarır.

Lakin Azərbaycan qadınının şücaəti təkcə döyüş meydanları və saraylarla bitmədi. O, bu cəsarəti XX əsrin maarifçilik hərəkatına, sənət fədailiyinə daşıdı. Cəsur ziyalı xanımlarımızdan biri olan Mədinə xanım Qiyasbəyli xalqın savadlanması yolunda hər cür təhlükəni gözə alaraq 1906-cı ildə ilk kənd qız məktəbinin təməlini qoymuşdu. Onun açdığı yol Azərbaycan qadınının



cəmiyyətdəki yerini sarsılmaz etdi.

Musiqi tariximizin ilk parlaq simalarından olan Xədicə xanım Qayıbova isə Şərqin ilk peşəkar qadın pianoçusu və Azərbaycan Dövlət Konservatoriyasının qurulmasında, idarə



olunmasında müstəsna xidmətləri olan bir şəxsiyyət kimi tarixə düşdü. Onun barmaqlarından süzülən notlar, əslində, Tomrisin qılıncı, Nüşabənin zəkası qədər kəsərli idi. Çünki o, xalqın mədəniyyətini və ruhunu qoruyurdu. Repressiya illərinin ağır sınaqlarından keçsə də, o uca duruşunu və sənət eşqini heç vaxt itirmədi.

Əslində, bu qadınların hər biri eyni uca ruhun fərqli dövrlərdəki təzahürüdür. Bizim tariximizdə qadın heç vaxt kölgədə qalmayıb. Qadın hər zaman hadisələrin mərkəzində, qərarların başında durub. İstər Tomrisin qılıncı, istər Nüşabənin hikməti, istərsə də Sara xatunun uzaqgörənliyi eyni mənbədən, Azərbaycan qadınının fitri cəsarətindən qidalanıb.

Bu ruh əsrlərin sınağından çıxaraq bu günə gəlib çatıb. Tarixin sərt dönəmlərində torpağın müdafiəsində dayanan, saraylarda diplomatik danışıqlar aparan, ailədə övladına vətən sevgisini aşılayan qadın əslində bir millətin yaddaşı və vicdanı olub. Onun səssiz fədakarlığı çox zaman dastanlara düşməsə də, hər qələbənin, hər dirçəlişin arxasında onun görünməyən əməyi dayanıb.

Azərbaycan qadını sərkərdə, elçi, maarifçi, sənətkar və ziyalı kimi tarixə öz möhürünü vurub. Qılıncla meydanda savaşan da o olub, kəlamla mübahisəni bitirən də. Zərifliyi zəiflik yerinə, əksinə, gücün ən ali forması kimi nümayiş etdirib. Çünki onun iradəsi öz taleyi ilə yanaşı, bütöv bir toplumun gələcəyini formalaşdırıb.

Bu gün də biz həmin irsin davamçılarıyıq. Müasir Azərbaycan qadını elm sahəsində, mediada, siyasətdə, incəsənətdə və idmanda uğurlar qazanaraq keçmişlə bu gün arasında möhkəm körpü yaradır. O, həm milli dəyərləri qoruyur, həm də yeniliyə açıq düşüncə ilə gələcəyə addımlayır. Qədimdən gələn o uca ruh indi yeni formalarda təzahür edir, amma mahiyyəti dəyişmir.

Qədim dövrlərdən bu yana qadınlarımızın iradəsi evdə bir ocaq yandırmaqla kifayətlənmir, bütöv bir vətənin işığını qoruyur. Bu şanlı keçmiş bizim bugünkü məğrurluğumuzun bünövrəsidir. Və biz hər dəfə tarixə baxanda anlayırıq ki, qadının gücü millətin taleyini dəyişə biləcək qədər böyük və müqəddəs bir qüvvədir.

*Elnurə Cəfərova*
*Jurnalistika ixtisası üzrə*
*IV kurs tələbəsi*

Baş redaktor:
**Şəhla Şirəliyeva**
shehlashiraliyeva@ndu.edu.az

**Ünvan:** AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
**Telefon:** 544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 374
**Tiraj 350**

Dizayner:
**SAHİLƏ ABBASOVA**
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.